HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 02 (896) ▪ 17 yanvar 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Əldə olunan uğurların əsas şərti xalq-iqtidar birliyidir

**Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**



İclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, 2017-ci ildə Azərbaycan sürətlə və uğurla inkişaf edib. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə verib: «Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Bir sözlə, dünyada risklər artmaqdadır və görünür ki, bu tendensiyalar hələ davam edəcək. Belə bir mənzərə ilə üzləşərək əlbəttə ki, dünya ictimaiyyəti narahatlıq hissi keçirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir. Hesab edirəm ki, indiki dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq, bizdə bu sahədə əldə edilmiş nəticələr yüksək qiymətə layiqdir».

Dövlətimizin başçısı qeyd edib ki, ötən il iqtisadi sahədə çox böyük uğurlar əldə olunub: «Mən bu tezisi elə ilin əvvəlində bəyan etmişəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ili olmalıdır. Belə də oldu və bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, çox böyük göstəricidir, ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf edirik. Digər tərəfdən, dünya miqyasında 35-ci yeri tutmaq doğrudan da böyük nəticədir, böyük qələbədir. Biz uzun illərdir ki, MDB məkanında liderlik mövqeyimizi qoruyuruq və möhkəmləndiririk. Hesab edirəm ki, beynəlxalq iqtisadi birlik tərəfindən bizim iqtisadi islahatlarımıza verilən ən böyük qiymət məhz Davos Forumunun reytinqidir və bunun da əsası var. Çünki son illər ərzində ölkəmizdə aparılan quruculuq və inkişaf işləri, bax, bu nəticələrə gətirib çıxarıbdır».

Ötən il ölkədə ümumi daxili məhsulun artdığına diqqət çəkən Prezident İlham Əliyev bunu iqtisadi inkişafın mühüm elementi kimi qeyd edib. «Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz artıb və burada artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıbdır. Bizim valyuta ehtiyatlarımız artıb. Keçən il ölkəmizdə bir çox önəmli infrastruktur və sosial layihələr icra edilmişdir. O layihələr böyük pul tələb edir. Buna baxmayaraq, 2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır və hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkəmizin əhalisini nəzərə alaraq, hesab edirəm ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında öncül yerlərdən birini tutur. Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, həm yerli və həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, eyni zamanda, qeyd etdiyim sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə xarici ölkələrə vəsait qoymaq bir çox investorlar tərəfindən o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək hesab edirəm ki, böyük nailiyyətdir».

Dövlətimizin başçısı qeyd edib ki, 2017-ci ildə ixrac 19 faiz artıb, qeyri-neft ixracı isə 24 faiz yüksəlib: «İdxal isə təqribən cəmi 1 faiz artmışdır və bu da təbiidir. Çünki, ilk növbədə, Azərbaycan öz daxili tələbatını daha böyük həcmdə daxili istehsal hesabına təmin edir, digər tərəfdən vətəndaşların alıcılıq qabiliyyəti artır. Beləliklə, idxalın sabit səviyyədə qalması hesab edirəm ki, çox böyük nəticəmizdir. Ticarət balansımızın müsbət saldosu isə 6,2 milyard dollardır. İqtisadiyyatçılar yaxşı bilirlər ki, bu, çox gözəl göstəricidir. Əminəm ki, bu il və bundan sonrakı illərdə bizim saldomuz həmişə müsbət olacaq. Hesab edirəm ki, fərq daha da böyük olacaq və beləliklə, makroiqtisadi vəziyyətimizin yaxşılaşdırılması, manatın məzənnəsinin sabit səviyyədə saxlanması üçün bu, çox mühüm amillərdən biridir».

Regionların inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Azərbaycan Prezidenti 2017-ci ildə ölkədə 221 min yeni iş yeri açıldığını və onların 177 mininin daimi iş yeri olduğunu vurğulayıb: «Bu, çox böyük göstəricidir. Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir. Onu da qeyd etməliyəm ki, keçən il 47 min iş yeri bağlanmışdır. Bu da təbii prosesdir. Ancaq, eyni zamanda, biz ciddi təhlil aparmalıyıq, görməliyik ki, hansı səbəblər üzündən 47 min iş yeri bağlanmışdır. Ancaq bununla belə 177 min daimi iş yerinin açılması, 47 min iş yerinin bağlanması yenə də burada da müsbət saldonu təmin edir və beləliklə, ölkəmizdə işsizliyin aşağı səviyyədə saxlanması üçün yaxşı imkanlar yaradır. Qeyd etməliyəm ki, ilin yekunlarına görə Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Hesab edirəm ki, bu da dünya miqyasında ən yaxşı nəticələrdən biridir».

Regionlarda infrastruktur layihələrinin icrası üçün böyük vəsait ayrıldığını, elektrik təchizatının yaxşılaşdığını deyən dövlət başçısı ölkənin 93 faizinin qazlaşdırıldığını, 2018-ci ildə dövlət büdcəsində qazlaşdırma üçün əlavə vəsait nəzərdə tutulduğunu xatırladıb. Eyni zamanda, 2017-ci ildə 1300 kilometr avtomobil yolunun salındığını, 500-dən çox kənddə yeni yolların inşa edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, sosial infrastrukturla bağlı çox ciddi addımlar atılıb - 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir aparılıb. Otuz tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. İki Olimpiya İdman Kompleksi istifadəyə verilib.

Məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev qeyd edib ki, bu baxımdan 2017-ci il də əlamətdar olub: 2300 ailə yeni evlərə, mənzillərə köçürülüb. Beləliklə, 12 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edilib: «Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. Köçkünlər o qəsəbəyə qayıdıblar, qayıdırlar və bu, tarixi, əlamətdar hadisədir. Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz qısa müddət ərzində bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır vəziyyətdə, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaq. Eyni zamanda, 2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb».

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş verdiyini diqqətə çatdıran dövlətimizin başçısı «Azəri-Çıraq-Günəşli» yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasının əhəmiyyətinə toxunaraq bildirib ki, bu saziş imkan verəcək ki, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulsun: «Burada söhbət on milyardlarla dollardan gedir. Əlbəttə ki, bu investisiyalar iqtisadiyyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcək, yeni iş yerlərinin, yeni yerli müəssisələrin yaradılması nəzərdə tutulur. Əlbəttə, neft hasilatının sabit saxlanması imkan verəcək ki, biz öz iqtisadi inkişafımızı planlaşdıraq və tədricən bundan sonra da neftdən asılılığı azaldaq. Son iki il ərzində biz buna demək olar ki, böyük dərəcədə nail olmuşuq. «Azəri-Çıraq-Günəşli» kontraktının müddətinin uzadılması bizə sərmayədən başqa digər önəmli dividendlər gətirir. İlk növbədə, SOCAR-ın payı 11 faizdən 25 faizə artırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə qalacaq. Deyə bilərəm ki, bu da gənc, müstəqil ölkə üçün xarici investorlarla neft sahəsində əldə edilmiş ən gözəl nəticədir. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR layihənin operatoru kimi bu işdə digər tərəfdaşlarla birlikdə iştirak edəcək və kontraktın uzadılmasına görə, baxmayaraq ki, xarici investorlar on milyardlarla dollar sərmayə qoyacaqlar, ondan əlavə 3,6 milyard dollar səkkiz il ərzində bərabər hissələrlə bizə bonus kimi veriləcəkdir».

Azərbaycan Prezidenti qeyd edib ki, ötən il Cənub Qaz Dəhlizinin uğurlu icrası təmin edilib: «İlin əvvəlində üçüncü dəfə «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının toplantısı Azərbaycanda keçirilmişdir. Bütün lazımi məsələlər müzakirə olundu və il ərzində layihənin icrası təmin edilmişdir.

Son məlumata görə, «Şahdəniz-2» layihəsinin icrası 99 faizə çatıbdır, demək olar ki, yekunlaşıb. Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir.

**Davamı 2-ci səhifədə**

# Bolqarıstan Baş nazirinin Azərbaycana səfəri

**Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə əvvəlcə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə görüşü olub.**



Söhbət zamanı ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, bu səfərin əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub, ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı İlham Əliyev bəyanatında bildirib ki, hər iki ölkə arasında əlaqələr çox uğurla inkişaf edir, siyasi sahədə fəal əməkdaşlığımız mövcuddur: «Bu gün biz əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha təsdiq etdik ki, Bolqarıstan və Azərbaycan iki dost ölkə kimi bundan sonra da uğurla əməkdaşlıq edəcək. İqtisadi sahədə biz çalışmalıyıq ki, aramızdakı ticarət dövriyyəsinin həcmini artıraq. Hazırda bu, lazımi səviyyədə deyil. Müvafiq göstərişlər verildi ki, qısa müddət ərzində ticarət dövriyyəsinin artırılması istiqamətində konkret addımlar atılsın. Hesab edirəm ki, qarşılıqlı sərmayə qoyuluşu üçün də yaxşı imkanlar var və biz bu istiqamətdə də işləyəcəyik».

Dövlətimizin başçısı aparılan danışıqların əsas mövzusunun energetika sahəsi ilə bağlı olduğunu, Azərbaycan və Bolqarıstanın birlikdə digər ölkələrlə bərabər Cənub Qaz Dəhlizinin icrasını təmin etdiyini vurğulayıb: «Cənub Qaz Dəhlizinin inşası Avropanın enerji təhlükəsizliyinə növbəti töhfəmiz olacaqdır. Hazırda Azərbaycan nefti bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və yaxın gələcəkdə Azərbaycan qazı da eyni funksiyanı daşıyacaqdır. Cənub Qaz Dəhlizinin icrası uğurla gedir. «Şahdənz-2» layihəsinin icrası 99 faizə çatıbdır. «Şahdəniz-2» Cənub Qaz Dəhlizinin əsas resurs bazasıdır. Eyni zamanda, bu il TANAP layihəsinin başa çatması nəzərdə tutulmuşdur. Bu layihənin icrası da 90 faizə çatıbdır. Beləliklə, bütün işlər qrafik üzrə gedir və bu nəhəng layihə uğurla icra edilir».

Yanvarın 16-da Bakı-Sofiya marşrutu ilə birinci aviareysin həyata keçiriləcəyini diqqətə çatdıran Azərbaycan Prezidenti qeyd edib ki, bu, çox əlamətdar hadisədir. Bu reys əlbəttə ki, insanları bir-birinə daha da sıx bağlayacaq, insanlararası əlaqələr güclənəcək, turizmin inkişafına təkan veriləcək və bir sözlə, Bolqarıstan-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəkdir.

Baş nazir Boyko Borisov bəyanatla çıxış edərək bildirib ki, Azərbaycan Bolqarıstanın qazlaşdırılması üçün öz töhfəsini verməyə hazırdır: «Cənab Prezident İlham Əliyevin xeyir-duası ilə bizim şirkətlə SOCAR arasında 1 milyard kubmetr həcmində Azərbaycan qazının sərfəli qiymətlərlə çatdırılması məsələsi həllini tapacaq. Əgər hörmətli Azərbaycan Prezidentinin dəstəyi ilə ölkəmizin qazlaşdırılmasına nail olsaq, biz əhalinin sosial cəhətdən zəif təbəqəsi üçün qazın təchizatı mümkünlüyünü təmin edə biləcəyik».

Azərbaycanla regional nəqliyyat dəhlizlərinin həyata keçirilməsi istiqamətində səmərəli əməkdaşlıq etdiklərini deyən Bolqarıstanın Baş naziri kənd təsərrüfatı, turizm, iqtisadiyyatın digər sahələrində faydalı əməkdaşlıq üçün əlverişli potensialın olduğunu diqqətə çatdırıb: «Bolqarıstandan Azərbaycana əsasən kənd təsərrüfatı, iqtisadiyyat sahələrində məhsulların ixracı həyata keçirilir. Ümid edirik ki, bu imkanları genişləndirə bilərik. Əgər Azərbaycan qazının Bolqarıstana təchizatı baş tutarsa, bu əmtəə mübadiləsini tarazlaşdıra bilərik. Bütün bu investisiyaların yatırılması, birbaşa nəqliyyatın mövcudluğu, - nəzərə alsaq ki, biz Bakıya təyyarə ilə üç saata gələ bilərik, - bizə iqtisadiyyatı, turizmi inkişaf etdirməyə rəvac verəcək».

Vergi xidmətləri arasında əməkdaşlıq müzakirə edilib
səh. 2

Sahibkarlar üçün sərfəli, şəffaflıq üçün zəruri addım
səh. 3

Kağız qaimə-fakturalar dövrü başa çatdı
səh. 4

Xidmət mərkəzləri vergi ödəyicilərinin işini asanlaşdırır
səh. 5

# Əldə olunan uğurların əsas şərti xalq-iqtidar birliyidir

Əvvəli 1-ci səhifədə

Bu, artıq onu göstərir ki, Cənub Qaz Dəhlizi reallaşıb. TAP layihəsinə gəldikdə isə, orada da işlər demək olar ki, qrafik üzrə gedir. Bilirsiniz ki, TAP layihəsində Azərbaycan əsas paya malik deyil. Bizim orada 20 faiz payımız var, amma biz iştirak edirik. Mənə verilən məlumata görə, o layihənin icrası 60-62 faiz səviyyəsindədir».

2017-ci ildə nəqliyyat sahəsində önəmli addımların atıldığını, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının mühüm hadisə olduğunu deyən dövlətimizin başçısı bu layihənin əhəmiyyətinə diqqət çəkib: «Bu yol Bakıdan başlanır. Təsadüfi deyil ki, təntənəli açılış mərasimi Azərbaycanda keçirilmişdir. Uzunluğu 850 kilometrə yaxın olan dəmir yolunun 504 kilometri Azərbaycan ərazisində tikilib, bərpa edilib. Bilirsiniz ki, Azərbaycan bu yolun icrasında ən böyük maliyyə yükünü öz üzərinə götürmüşdür. Bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirəcək və artıq çevirir».

Çıxışında Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ münaqişəsinə də toxunan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın prinsipial mövqeyi ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir: «Onlardan biri Dağlıq Qarabağda separatçı rejim tərəfindən keçirilmiş qanunsuz «referendum»un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar «referendum»un tanınmaması haqqında da birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır. Bilirsiniz ki, ilin sonunda Avropa İttifaqının «Şərq tərəfdaşlığı» Zirvəsində qəbul edilmiş Bəyannamədə də «Şərq tərəfdaşlığı»na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənmişdir. Bu, işğalçı Ermənistana növbəti zərbə olmuşdur. Bu, ədalətin təzahürüdür və eyni zamanda, onu göstərir ki, bu gün Avropa qurumları, dünya mərkəzləri həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, eyni zamanda, ümumiyyətlə dünyada gedən proseslərlə bağlı daha müsbət yanaşma ortaya qoyurlar. O da həqiqətdir ki, hazırda Avropanın özü separatizmdən əziyyət çəkir və görür ki, separatizm nədir. Biz isə aqressiv separatizmlə üzləşmişik. Bizə qarşı soyqırımı törədilmişdir. Bizim vətəndaşlarımız öz doğma torpaqlarından silah gücünə çıxarılmışdır. Əlbəttə, dünyada, o cümlədən Avropada



separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, yalnız vahid yanaşma tətbiq olunmalıdır. Biz həmişə bunu demişik. Mən dəfələrlə bunu deyirəm ki, bütün münaqişələrə, bütün separatizm təzahürlərinə vahid yanaşma tətbiq olunmalıdır, ikili standartlara yer olmamalıdır, bundan əl çəkilməlidir. Biz bunu artıq görürük. Hesab edirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu, önəmli hadisələrdir. Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir».

Prezident İlham Əliyev 2017-ci ilin Azərbaycanda «İslam Həmrəyliyi İli» kimi də yadda qaldığını vurğulayıb: «Bu qərar bir daha onu göstərir ki, biz öz tarixi, dini köklərimizə bağlıyıq. Nəinki ölkə ərazisində İslam həmrəyliyi təmin edilir, bütövlükdə bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Biz istəyirik ki, bu tendensiyalar bölgəmizdə və dünyada daha da güclənsin. İl ərzində həm Azərbaycanda, həm də xaricdə keçirilmiş bir çox tədbirlər göstərir ki, bu qərar - 2017-ci ili «İslam Həmrəyliyi İli» elan etməyimiz İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu. Son önəmli tədbir - dekabrın axırında Bakıda beynəlxalq konfransın keçirilməsi və bu konfransda dünya liderlərinin təbrik məktubları, yüksək səviyyəli qonaqların iştirakı bir daha göstərir ki, Azərbaycan dünya miqyasında həm İslam həmrəyliyi işlərinin təşkili, eyni zamanda, multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir».

*Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev rəhbərlik etdikləri sahələrdə görülən işlər və nəzərdə tutulan tədbirlər barədə dövlət başçısına hesabat xarakterli məlumat veriblər.*

İclasda yekun nitqi söyləyən Prezident İlham Əliyev 2018-ci ildə makroiqtisadi vəziyyətin və sabitliyin təmin olunması üçün qarşıya qoyulmuş tədbirlərin davam etdirilməsinin vacibliyinə toxunub. Qeyd edib ki, makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir: «Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir. Biz çalışmalıyıq ki, Neft Fondunun gəlirlərini artıraq. Ümumiyyətlə, bizim valyuta ehtiyatlarımız, Dövlət Neft Fondunun valyuta ehtiyatları ildən-ilə artır. Əlbəttə, bu, bizə imkan verəcək ki, ölkə qarşısında duran önəmli layihələr üçün vəsait ayıraq və ölkəmizin iqtisadi dayanıqlılığını təmin edək».

Dövlətimizin başçısı cari ildə sərmayə qoyuluşlarının artımı, qeyri-neft sektorunun inkişafı, yeni iş yerlərinin yaradılması, sosial infrastruktur layihələrinin icrası, kənd təsərrüfatının və turizmin inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəyini bildirib.

Çıxışının sonunda Prezident İlham Əliyev 2018-ci ili ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti İli» elan edib.

## Vergi xidmətləri arasında əməkdaşlıq müzakirə edilib

Yanvarın 12-də vergilər naziri Mikayıl Cabbarov İtaliyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Augusto Massari ilə görüşüb. Görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli münasibətlərin inkişafı, ölkələrimizin vergi xidmətləri arasında əməkdaşlıq, o cümlədən təcrübə mübadiləsi məsələləri müzakirə edilib, Azərbaycanın regionlarında xarici investorlar üçün yaradılmış şərait, sənaye və texnologiyalar parklarında mövcud olan vergi və digər güzəştlər sistemi barədə fikir mübadiləsi aparılıb.

## «ASAN imza» təhlükəsizliyə zəmanət verir

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinin (ASXM) başlıca vəzifəsi informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi, eləcə də hüquqi və fiziki şəxslərə sertifikat xidmətlərinin göstərilməsidir. 2013-cü ilin may ayından fəaliyyətə başlayan mərkəz autentifikasiya, mobil SIM («ASAN imza») və elektron smart-kartlar (rəqəmsal ID-kart) üçün elektron imza sertifikatlarını təqdim edir.**

***Elektron imza əl imzasına bərabər tutulur***

«ASAN imza» mobil identitet və imza xidməti dövlət və özəl sektorun elektron xidmətlərinə hər yerdə və təhlükəsiz şəkildə əlyetərlilik imkanı yaradır və şəxsiyyəti identifikasiya etməyə, «Elektron imza və elektron sənəd haqqında» Qanuna əsasən əl imzasına bərabər tutulan elektron imza ilə imzalamağa imkan verir.

«ASAN imza» əsasən dövlət xidmətlərinin qanunilaşdırılması zamanı istifadə olunur. Azərbaycanda bir çox aparıcı banklar özlərinin internet və mobil bankçılıq sistemlərinə «ASAN imza» texnologiyasını inteqrasiya ediblər. Bu, bütün vacib elektron tranzaksiyaları həyata keçirməyə və sənədləri hüquqi baxımdan qanuni olan elektron imza ilə imzalamağa şərait yaradır, tranzaksiyaların təhlükəsizliyinə və toxunulmazlığına tam zəmanət verir. Hazırda «ASAN imza» vasitəsilə elektron vergi bəyannamələrinin verilməsi, gömrük xidmətində məhsulların və nəqliyyat vasitələrinin bəyan edilməsi, əmək müqavilələri haqqında bildirişlərin qeydiyyatı və s. həyata keçirilir. «ASAN imza» - «Şəxsi kabinet»lərə, ödəniş platformalarına, sığorta və digər onlayn sistemlərə giriş üçün universal və daha təhlükəsiz identifikator kimi əvəzedilməzdir.

***«ASAN imza»nın əhatə dairəsi genişlənir***

«ASAN imza» Azərbaycan Respublikası Prezidenti yanında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən işlənib hazırlanmış, dövlət və özəl sektorun partnyorluq prinsiplərinə əsaslanan və «Made in Azerbaijan» innovativ məhsulu hesab edilən «Azexport.az» portalına da inteqrasiya edilmişdir. Portal Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyir və «Alibaba.com», «eBay.com», «Wholesale», «Amazon», «All.biz» kimi dünya elektron ticarət şirkətləri ilə çalışır. Bundan əlavə, Azərbaycanın qeyri-rezidentləri üçün fəaliyyətə başlayan emResidency proqramı sayəsində «ASAN imza»dan hər kəs istifadə etmək imkanı əldə edib. Bu, xüsusilə xaricdə fəaliyyət göstərərək Azərbaycanda biznes qurmağa, ölkəyə investisiya qoymağa və lokal onlayn xidmətlərin bütün imkanlarından istifadə etməyə çalışan hər kəsə faydalı ola bilər. Layihə xarici vətəndaşlara «ASAN imza» istifadəçisi olmağa, bununla da Azərbaycanda təqdim olunan elektron xidmətlərdən yararlanmağa və dünyanın istənilən nöqtəsindən öz fəaliyyətlərini həyata keçirməyə imkan verir. «AsanDoc.az» portalı sayəsində orada autentifikasiya vasitəsi kimi tətbiq olunan «ASAN imza» vasitəsilə elektron formada istənilən sənədi imzalamaq mümkündür.

Ölkənin hər üç mobil operatoru tərəfindən abunəçilərə «ASAN imza» mobil identifikasiya xidməti təqdim edilir. Mobil operator tərəfindən 3 növ - fiziki şəxslər üçün elektron imza sertifikatları, hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün elektron imza sertifikatları və dövlət qulluqçuları üçün «ASAN imza» SİM kartı təqdim olunur. Fiziki şəxslərə aid elektron imza kartı şəxsi istifadə üçün nəzərdə tutulmuşdur. Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları isə kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir. Sertifikatların - şəxsi, iş, dövlət və bələdiyyə növləri var.

2017-ci il ərzində «ASAN imza» sertifikat xidmətləri üzrə 86 min 223 müraciət olmuş və 149 min 110 sertifikat verilmişdir ki, bu da 2016-cı illə müqayisədə müraciətlərin (37.122) sayından 1,3 dəfə, verilmiş sertifikatların (64.937) sayından 1,3 dəfə çoxdur. İndiyədək ümumilikdə 404 min 646 «ASAN imza» sertifikatı verilmişdir.

**Aytən NƏBİYEVA**

## Proqnozlar nikbindir

Dünya Bankının bu günlərdə açıqladığı «Qlobal iqtisadi perspektivlər» adlı hesabatın müəllifləri dünya bazarlarında son iki ildə davam edən iqtisadi geriləmənin 2018-ci ildə tədricən aradan qalxacağına diqqət çəkərək, neft ölkələrinin əksəriyyətində, o cümlədən Azərbaycanda artım müşahidə olunacağını bildiriblər.

Dünya Bankının eksperti, «Qlobal İqtisadi Perspektivlər» hesabatının müəllifi Françesko Onsorqun sözlərinə görə, müəyyən iqtisadi geriləmə dövrünü keçirən Azərbaycan 2018-ci ildə iqtisadi artım dövrünə qədəm qoyacaq. Onun fikrincə, Azərbaycan iqtisadiyyatı cari ildən etibarən tam stabilləşmə mərhələsinə qədəm qoyacaq və ölkədə tədricən inkişaf dinamikası yüksələcək. Neft iqtisadiyyatının öz yerini sabit və dayanıqlı qeyri-neft iqtisadiyyatına verməsi makroiqtisadi inkişafa zəmin yaradacaq.

Bankın mütəxəssisləri 2018-ci ildə Azərbaycanda ümumi daxili məhsulun 0,9%, 2019-cu ildə isə 1,5% artacağını proqnozlaşdırırlar. Burada əsas amillər kimi son bir ildə qeyri-neft ixracının artması və tədiyyə balansında müsbət saldonun əldə olunması, eləcə də cari ildə ixracyönümlü qeyri-neft istehsalının artımının proqnozlaşdırılması, «Şahdəniz-2» layihəsinin işə düşməsi və s. göstərilir.

Azərbaycan hökumətinin də 2018-2019-cu illərə dair iqtisadi göstəricilərlə bağlı proqnozları nikbin xarakterlidir. İqtisadiyyat Nazirliyinin hazırladığı makroiqtisadi proqnoza görə, bu il ölkə iqtisadiyyatının 1,5 % artacağı gözlənilir. Artımın əksər hissəsi qeyri-neft sektorunun payına düşəcək və ÜDM-də nisbəti 70 faizə yaxınlaşacaq. 2019-2021-ci illərdə makroiqtisadi inkişaf göstəricisi orta hesabla 2,5-3% səviyyəsində proqnozlaşdırılır. 2018-ci ildə neft hasilatının 2%-ə yaxın azalması gözlənilir, neft bazarında 60 dollarlıq qiymət indeksinin nəzərə alınmasına baxmayaraq, hökumətin neft gəlirləri üzrə gözləntiləri müəyyən edilmiş proqnoza uyğun olacaq. Bununla yanaşı, bu il qaz hasilatının orta hesabla 5%-ə qədər artımı gözlənilir ki, bu faktor da ümumilikdə xarici valyuta daxilolmalarına müsbət təsir edəcək.

2018-ci ildə sistem əhəmiyyətli islahatların davam etdirilməsi, bank sisteminin yaxşılaşdırılması, maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı dövlət orqanlarının koordinasiyalı fəaliyyəti, yerli və xarici biznesin stimullaşdırılması, qeyri-neft ixracı ilə məşğul olan sahibkarların ixrac qabiliyyətinin təşviqi siyasətinin həyata keçirilməsi nəzərdə tutulur. 2018-2021-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonun əldə olunacağı və bu faktorun maliyyə sabitliyinə, manatın məzənnəsinə təsir edəcəyi proqnozlaşdırılır. Nəticədə sabit maliyyə sistemi manata kənar xarici təzyiqləri azaldacaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Aydın Hüseynov bildirib ki, Azərbaycanda iqtisadi strukturlar, biznes sektoru aşağı neft gəlirləri fonunda müasir şəraitə uyğun fəaliyyət göstərməklə yeni iqtisadi tələblərə uyğunlaşmaqdadır. Bu isə qeyri-neft sahələrinin inkişaf etdirilməsi sayəsində iqtisadi artımın formalaşdırılmasına öz təsirini göstərməkdədir. Hökumətin qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi və inkişafı ilə bağlı ortaya qoyduğu strategiya və icrası davam etdirilən strateji yol xəritələri əlavə dəyərin yaradılmasına və iqtisadi artımın əldə olunmasına imkan verəcək. 2018-ci ildə qeyri-neft sektoru üzrə artım 3% gözlənilir. Neftdənkənar sahələrin artım dinamikası isə növbəti 3 ildə təxminən 3,5-5% təşkil edəcək. Aqrar sahədə 6,2%, turizm sektorunda 6,6%, İKT sektorunda 5,1% artım gözlənilir. Ölkədə yerli və xarici investisiya qoyuluşlarının artırılması üçün cəlbedici sərmayə mühitinin yaradılması istiqamətində də tədbirlər görüləcək. Cari ildə əsas kapitala investisiya qoyuluşlarının 15,9 milyard manat: xarici investisiyaların 7,7 milyard manat, daxili investisiyaların 8,2 milyard manat olacağı proqnozlaşdırılır. Neft sektoruna 6,4 milyard manat, qeyri-neft sektoruna isə 9,5 milyard manat investisiya yatırılacağı gözlənilir.




Dünya Bankının hesabatında, Azərbaycan da daxil olmaqla, MDB-nin neft ixracatçısı olan ölkələrinə iqtisadiyyatın şaxələndirilməsi üzrə tədbirləri daha da sürətləndirməyi tövsiyə edib. Bankın mütəxəssisləri hesab edirlər ki, neft ixracatçıları iqtisadiyyatlarını şaxələndirə bilməsələr, iqtisadi artımın daha zəif tempindən zərər çəkə bilərlər. Bununla yanaşı, müasir dövrün tələblərinə adekvat olaraq biznes, fiskal, maliyyə sektorlarında aparılan islahatların perspektiv üçün yaxşı gözləntilər vəd etdiyini vurğulayıblar. Qeyd olunub ki, Azərbaycanda Maliyyə Sabitliyi Şurasının yaradılması makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi və maliyyə dayanıqlığının təmin edilməsində, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsində mühüm addımlardan biri kimi xüsusi əhəmiyyət kəsb edir.

2018-ci ildə aparılan islahatlar biznes sektorunda rəqabətliliyin və şəffaflığın təmin olunması, sahibkarların mənafeyinə xidmət edən yeni qaydaların qüvvəyə minməsi, xarici ticarətlə bağlı prosedurların asanlaşdırılması, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran mühüm addımların atılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, xidmət səviyyəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində tədbirlər davam etdiriləcək. Bu il gözlənilən ən mühüm hadisələrdən biri də Azərbaycan qazının Türkiyə ərazisinə nəqlini nəzərdə tutan TANAP layihəsinin başa çatdırılmasıdır. Bundan başqa, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ilə yük daşınmalarının rentabelliyi artacaq, digər Xəzəryanı ölkələr bu tranzit magistralına qoşulacaq və ilin ortalarında sərnişin daşınmaları həyata keçiriləcək.

**Elbrus CƏFƏRLİ**

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 20 Yanvar hadisələrindən iyirmi səkkiz il keçir. Artıq iyirmi səkkiz ildir ki, Azərbaycan xalqı bu faciənin ağrısı ilə yaşayır. Xalqımız XX əsrin 90-cı illərində milli-azadlıq uğrunda mübarizəyə qalxaraq imperiya buxovlarından birdəfəlik azad olmaq üçün mücadiləyə başladı. Lakin azadlıq uğrunda bu şərəfli mübarizə qansız ötüşmədi.




Həmin müdhiş gündə - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının rəhbərliyi Azərbaycan xalqının mübarizə əzmini qırmaq üçün hərb maşınını işə salaraq bəşəriyyət qarşısında misli görünməmiş dəhşətli faciə törətdi. Əliyalın əhaliyə qarşı qabaqcadan planlaşdırılmış cinayət əməlləri nəticəsində 131 nəfər günahsız insan ən amansız formada öldürüldü, yüzlərlə insan yaralandı və itkin düşdü. Parçalanmağa, dağılmağa, məhv olmağa məhkum edilmiş qanlı sovet rejimi mövcudluğunun son günlərində törətdiyi cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi. Həmin gün xüsusi təlim görmüş, dinc, əliyalın insanlara qarşı amansız vəhşiliklər törətməyə hazırlanmış sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridilərək milli azadlıq və istiqlaliyyət uğrunda ayağa qalxmış Azərbaycan xalqına misli görünməmiş divan tutdu.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev bu çətin anlarda yenə də qətiyyətli mövqeyini ortaya qoydu. İmperiyanın yeritdiyi siyasətə qarşı etiraz səsini ucaltdığına görə SSRİ rəhbərliyindən uzaqlaşdırılan və ev dustağı edilən Heydər Əliyev həmin günlərdə böyük təzyiqlərə məruz qalsa da, Azərbaycan xalqı və tarix qarşısında üzərinə düşən məsuliyyəti ləyaqətlə yerinə yetirdi, xalqla bir olduğunu nümayiş etdirdi. Faciədən bir gün sonra həyatı üçün hər an yarana biləcək təhlükələrdən qorxmadan Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi və hamının susmağa üstünlük verdiyi o anlarda faciənin törədilmə səbəblərini açıqladı, bütün rəsmi strukturların gizlətməyə çalışdığı ən dəhşətli faktları və məlumatları, eləcə də qanlı yanvar hadisəsinin günahkarlarının adlarını dünya ictimaiyyətinə çatdırdı. İttifaq rəhbərlərinin və onların Azərbaycandakı əlaltılarının bu qanlı faciəni törətməkdə birbaşa məsuliyyət daşıdıqlarını göstərdi: «Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən M.S.Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyllərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərliyinin xalqa xəyanəti və cinayətin nəticəsidir». İmperiya rəhbərliyinin gözləmədiyi bir anda, paytaxt Moskvadan ölkə rəhbərliyinin dəhşətli faciəyə səbəb olan addımların və faciə ilə bağlı real həqiqətləri əks etdirən faktların dünya ictimaiyyətinə çatdırılması Heydər Əliyevin həyatı üçün təhlükəsiz ötüşə bilməzdi. Mətbuat konfransından sonra daha ciddi təzyiqlərə və təqiblərə məruz qalan böyük öndər Vətənə qayıtdı. Azərbaycanın faciə dəhşətlərini yaşağı anlarda xalqı ilə birgə olmağı özünə mənəvi borc bilən ümummilli lider həmin dövrdə respublika rəhbərliyində olan qüvvələrin mərkəzi hakimiyyətin buyruqlarını yerinə yetirərək Heydər Əliyevin Bakıda qalmasına hər vəchlə maneçilik törətməsi səbəbindən Naxçıvana dönməyə və orada siyasi fəaliyyət göstərməyə məcbur oldu. Lakin Naxçıvanda olduğu müddətdə də qəlbinin həmişə xalqla döyündüyünü, həyatını öz xalqının xoşbəxt gələcəyinə həsr etdiyini Heydər Əliyev bir daha sübut etdi. Məhz 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk sənəd Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə qəbul edildi. 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu hadisəyə dəqiq siyasi-hüquqi qiymət verərək, faciənin təşkilatçılarını, icraçılarını açıq şəkildə göstərdi və 20 Yanvar faciəsini imperiya rəhbərləri tərəfindən Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq cəhdi kimi qiymətləndirdi.

Naxçıvan MR Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarında deyilirdi: «Yanvar faciələrinin səbəbkarlarının - istər İttifaq, istərsə də respublika rəhbər partiya, sovet, hüquq-mühafizə orqanı işçilərinin, hərbçilərin bu günədək aşkar edilib qanunla məsuliyyətə cəlb olunmaması xalqda dərin hiddət və etiraz doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bütün bunları işğalçı siyasət və

> «Bayraqları bayraq yapan
> üstündəki qandır,
> Torpaq, uğrunda
> ölən varsa, Vətəndir».
>
> ***Midhet Camal Kuntay***

dəqiq düşünülmüş hərbi təcavüz kimi qiymətləndirərək və insan hüquqları bəyannaməsinin kobud şəkildə pozulması kimi nəzərdə tutaraq qərara alır:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış Xüsusi Deputat Komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunsun. Azərbaycan SSR Ali Sovetindən tələb edilsin ki, ən qısa müddətdə həmin məsələni parlamentin müzakirəsinə çıxarsın.

4. Bu qərar qəbul edilən andan 20 Yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm günü kimi qeyd edilsin».

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin əsl mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı. 1994-cü il martın 29-da «1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında» adlı xüsusi qərar qəbul edildi və ilk dəfə respublika səviyyəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi.

Azərbaycan Prezidenti İlham Əliyev də 20 Yanvarda dövlətimizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və xoşbəxt gələcəyi uğrunda şəhid olmuş vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli «20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında» fərmanı ilə şəhid ailələrinə dövlət qayğısı daha da artırıldı.

Azərbaycan dövləti, onun rəhbəri və xalqımız torpaqlarımızın bütövlüyü, müstəqilliyimiz uğrunda canından keçənlərin adını həmişə uca tutub, onların xatirəsi bizim üçün hər zaman əziz olub. Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda, Vətən yolunda «Vətən sağ olsun» deyib canlarından keçən övladları bütün dünyaya sübut etdilər ki, Vətən torpağı müqəddəsdir, toxunulmazdır. Vətən torpağından pay olmaz, onu parçalamaq, yadlara vermək olmaz. Qəhrəman Azərbaycan xalqı həmin gün özünün azad və müstəqil yaşamağa layiq olduğunu bir daha sübut etdi.

Təsadüfü deyilməyib ki, heç nə yaddan çıxmır, heç kəs unudulmur. Vətən yolunda şəhidlik zirvəsinə yüksələnlər də heç vaxt unudulmur, yaddaşlardan silinmir, çünki şəhidlər ölməzdir. Bu ölməzlik həm də dövlətimizin müstəqilliyində, xalqımızın birliyində yaşayır.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Anar ƏLİYEV**

# Sahibkarlar üçün sərfəli, şəffaflıq üçün zəruri addım

Ölkəmizdə vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı aparılan islahatların əsas istiqamətindən biri bəyanetmə sisteminin elektronlaşdırılmasıdır. Vergi bəyannamələrini elektron formada göndərmək üçün İKT-nın yeni imkanlarından istifadə edilməklə müvafiq texniki infrastruktur yaradılıb.

***Bəyannamələrin elektron formada göndərilməsi qaydaları***

Bunun üçün Vergilər Nazirliyinin www.taxes.gov.az rəsmi internet saytı vasitəsilə xüsusi keçid və ya www.e-taxes.gov.az - İnternet Vergi İdarəsi, habelə nazirlikdə tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) müraciət edilməlidir. Həmin sistemdə elektron bəyannamələrin qəbulu və işlənməsi üzrə xüsusi proqram təminatı mövcuddur. Ödəyici prosesi həyata keçirmək üçün müvafiq kod və parola malik olmalıdır. İstifadəçi kodu, parol və şifrə - elektron bəyannamənin (hesabatın) təqdim edilməsi və onları təqdim edənlərin identikləşdirilməsi üçün xüsusi alqoritm vasitəsilə hazırlanan və vergi ödəyicisinə qapalı zərfdə verilən məxfi məlumatların kombinasiyasıdır. Vergi ödəyicisi elektron sənəd mübadiləsinin aparıldığı iş yerinin təhlükəsizliyini müstəqil təmin etməlidir. Elektron sənəd mübadiləsinin aparılması üçün istifadə olunan istifadəçi kodu, şifrə və parol məxfi saxlanılmalı, başqa şəxslərə verilməməlidir. Unudulduqda və ya başqaları tərəfindən istifadə olunduğu bilindikdə isə bu barədə dərhal vergi orqanına yazılı məlumat çatdırılmalıdır.

Vergi ödəyicisi vergi bəyannamələrini elektron şəkildə göndərmək üçün müvafiq ərizə formasını bir nüsxədə, müqavilə formasını isə iki nüsxədə doldurub imzalayır və uçotda olduğu vergi orqanına təqdim edir. Vergi orqanı vergi ödəyicisinin ərizəsini qəbul etdiyi tarixdən iki gün müddətində müqavilənin imzalanıb təsdiq edilməsini təmin edir. Müqavilə imzalandıqdan sonra onun bir nüsxəsi və elektron sənəd mübadiləsinin aparılması üçün zəruri istifadəçi kodu, şifrə və parol vergi ödəyicisinə qapalı zərfdə təqdim olunur.

***Elektron bəyannamələrin üstünlükləri***

Vergi ödəyiciləri bəyannamələrini elektron formada təqdim edərkən aşağıdakı üstünlüklərə malik olurlar:

- ödəyici vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasda olmadan tam şəffaf şəkildə, rahat və istədiyi vaxtda bəyannaməni tərtib edərək internet vasitəsilə təqdim edir;

- bəyannamənin tərtibinə və düzgünlüyünün yoxlanılmasına proqram təminatı vasitəsilə kömək göstərilir;

- bəyannamələr elektron formada saxlanılır;
- vergi ödəyicisi öz şəxsi hesab vərəqəsinə baxa bilir;
- ödəyici büdcəyə olan borcları barədə məlumatlar əldə edir.

Vergi bəyannamələrinin elektron formada təqdim edilməsi vergi inzibatçılığında təkmilləşməyə, iş həcminin azalmasına gətirib çıxarır. E-bəyannamələrin tətbiqi həm də vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsinə, e-xidmətlərdən istifadənin kütləviləşməsinə şərait yaradır.

***Mərhələ-mərhələ...***

İlkin mərhələdə sadələşdirilmiş vergi bəyannaməsini onlayn qaydada təqdim etmək mümkün idi. Növbəti mərhələdə isə torpaq vergisi üzrə bəyannamələrin vergi orqanları tərəfindən tərtibi və vergi ödəyicisi tərəfindən təsdiqi mexanizmi işə salındı. Daha bir yenilik mobil texnologiyaların tətbiqi sahəsində baş verdi. 2015-ci ildən vergi ödəyiciləri Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə zəng edərək sadələşdirilmiş vergi bəyannaməsini «ASAN imza» vasitəsilə daha rahat təqdim edə bilirlər.

Bəyannamələrin elektron formada təqdim edilməsində vergi ödəyiciləri də maraqlıdırlar: 2013-cü ildə bəyannamələrin 93,4%-i, 2014-cü ildə 91,6%-i, 2015-ci ildə 94,9%-i, 2016-cı ildə 94,6%-i elektron formada təqdim edilib. 2017-ci ildə isə bu rəqəm 95%-ə çatıb. Bəyannamələrin vergi orqanına vaxtında təqdim edilməsi istiqamətində xidmət strukturları tərəfindən vergi ödəyicilərinə hərtərəfli şərait yaradılıb. Vergi ödəyiciləri həm xidmət mərkəzlərinə müraciət etməklə onlara xidmət göstərən təmsilçilərin köməyindən yararlana, həm də orada quraşdırılmış özünəxidmət kompüterlərindən istifadə edə bilirlər. Ödəyicilərin əksəriyyəti bəyannamələrini internet üzərindən sərbəst şəkildə tərtib edib vergi orqanına göndərir. Bunun üçün nazirliyin internet saytında vergi bəyannamələrinin elektron formada göndərilməsini izah edən videotəlimat yerləşdirilib.

***Hər kəs öz məsuliyyətini bilməlidir***

Bəyannamələrin vaxtında təqdim edilməməsi qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, vergi hesabatını və ya 16.2-ci maddədə nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən olunan müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarı ilə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi bəyannaməsi üzürlü əsas olmadan təqdim edilmədikdə isə vergi orqanı Vergi Məcəlləsinin 67-ci maddəsinə müvafiq qaydada vergiləri hesablamaq hüququna malikdir.

***Bəyannamə formaları təkmilləşdirilib***

Azərbaycan Prezidenti İlham Əliyevin 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» imzaladığı sərəncamın tələblərinə uyğun olaraq, vergi bəyannamələrinin tərtib edilməsi qaydalarına da müvafiq dəyişikliklər edilib. 2016-cı il avqustun 26-da «Gəlir vergisinin bəyannaməsi»nə, «Mənfəət vergisinin bəyannaməsi»nə, «Torpaq vergisinin bəyannaməsi»nə, «Əmlak vergisinin bəyannaməsi»nə və onların tərtib edilmə qaydalarına, eləcə də «Dövlət rüsumunun tutulması haqqında hesabat»ın formasına, «Dövlət rüsumunun tutulması haqqında hesabatın tərtib edilməsi qaydası»na, habelə «Sadələşdirilmiş verginin bəyannaməsi»nə və «Əlavə dəyər vergisinin bəyannaməsi»nə, «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi»nə, «Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nə əlavələr və onların tərtib edilmə qaydalarına müvafiq dəyişikliklər təsdiq olunub. Dəyişikliklər vergi inzibatçılığının təkmilləşdirilməsinə və bəyannamə formalarının sadələşdirilməsinə, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının düzgün müəyyənləşdirilməsinə xidmət edir. Bəyannamələr vasitəsilə əldə olunan məlumatların dəqiqləşdirilməsi isə vergi ödəyicilərində keçirilən nəzarət tədbirlərinin sayının azalmasına şərait yaradır.

2017-ci il yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli, vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə mövcud bəyannamələrə, hesabatlara, onların əlavələrinə və tərtib olunması qaydalarına dəyişiklik edilib, bir sıra bəyannamələrə yeni əlavələr təsdiq olunub. Əlavə dəyər vergisi, mənfəət, gəlir, torpaq, mədən, yol, sadələşdirilmiş vergilərin, onların əlavələrinin, habelə ödəmə mənbəyində tutulan vergi və aksiz bəyannaməsinin formaları və tərtib edilmə qaydaları yeni redaksiyada öz əksini tapıb. Ötən ilin ilk rübündən ödəyicilər e-bəyannamələrin tərtibini müəyyən edilmiş həmin qaydalar əsasında həyata keçirirlər.

***E-bəyannamələr beynəlxalq hesabatlarda təqdir olunur***

Beynəlxalq təşkilatlar vergi bəyannamələrinin təkmilləşdirilməsini mühüm uğur kimi qiymətləndirirlər. Dünya Bankı tərəfindən hər il dərc olunan «Doing Business» hesabatlarında son illərdə biznes və vergiyə aid əsas amillərdən biri kimi bəyannamələrin təqdim olunmasına sərf edilən müddətə diqqət yetirilib. Hesabatda vergi məsələlərinə aid hər iki indeks («Biznesə başlama» və «Vergilərin ödənilməsi») üzrə nəticələr inzibati prosedurların sayı, sərf olunan vaxt və xərclərin dəyəri, həmçinin ödənilmiş minimum kapitalın həcmini ifadə edir. Azərbaycanın vergi sistemində bəyannamələrin doldurulmasına sərf edilən müddətin azaldılması təqdir olunur və e-bəyannamə sisteminin tətbiqinin elektron xidmətlərin ən yaxşı formalarından biri kimi əhəmiyyəti vurğulanır.

Qarşıdakı dövrdə ödəyici qrupundan asılı olaraq vergi bəyannamələrinin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq subyektləri üçün bəyannamə və hesabat formalarının sadələşdirilməsi, vergi ödəyicilərinin qeydiyyatının cəmi 1 gün ərzində həyata keçirilməsi, uçot baza məlumatlarının aktuallığının təmin edilməsi nəzərdə tutulur.

***Sahibkarların rəyləri, arzuları...***

Sahibkar **Akif Xankişiyev** deyir ki, əvvəllər vergi idarələrinə bir qalaq kağızla gedirdik, həm vaxtımız itirdi, həm də əziyyət çəkirdik. 10 ildən artıqdır ki, vergi ilə bağlı hesabat və bəyannamələri rahat şəkildə öz evimdən internetlə göndərirəm. Kiçik ticarətlə məşğul olan **Ayaz Rüstəmov** vergi bəyannamələrinin elektronlaşdırılmasının işini asanlaşdırdığını deyir. Onun sözlərinə görə, bəyannamə formaları bir qədər mürəkkəbdir və tərtib olunmasında bəzən çətinliklərlə üzləşir. Ona görə də bəyannamələrin sadələşdirilməsi yaxşı olardı. Sahibkar **Yaşar Məmmədov** isə bəyannamə formalarının sadələşdirilməsi ilə yanaşı, təqdimolunma formalarının da təkmilləşdirilməsinin tərəfdarıdır. Sahibkar **Elgün Dünyamalıyev** «ASAN imza»nın mütərəqqi addım kimi əhəmiyyətinə toxunur, amma bu sistemin də sadələşdirilməsini vacib sayır. İş adamı **Vüqar Əliyev** elektron bəyannamələrin doldurulması zamanı vergi xidməti mərkəzlərinin əməkdaşlarının izahedici məlumatlarına ehtiyac duyduğunu və onların köməyi ilə e-bəyannamələri tərtib etdiyini gizlətmir. O da sənədləşdirmənin asanlaşdırılması üçün müvafiq tədbirlərin görülməsini arzu edir.

**Elbrus CƏFƏRLİ**

Hər bir vergi ödəyicisinin üzərinə götürdüyü öhdəliklərdən biri vergi bəyannamələrinin müəyyən edilmiş müddətdə vergi orqanına təqdim olunmasıdır. Vergi bəyannamələri il ərzində müxtəlif vergi növlərinə əsasən təqdim edilir. Vergi ödəyicisi bəyannamələri və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı vasitəsilə elektron qaydada təqdim etmək imkanına malikdir.

**2018-ci il yanvar ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilmə müddətini aşağıdakı qrup üzrə təsnifləşdirmək olar:**

***2017-ci ilin dekabr ayına görə tədiyyəçi olan vergi ödəyicilərinin təqdim etməli olduqları vergi bəyannamələri***

- Əlavə dəyər vergisi bəyannaməsi;
- Aksiz vergisi bəyannaməsi;
- Yol vergisi bəyannaməsi;
- Mədən vergisi bəyannaməsi;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş vergi bəyannaməsi;
- Uduşlardan ( mükafatlar) əldə edilən gəlirlər üzrə vergi bəyannaməsi;
- Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi.

Həmin sahələr üzrə vergi ödəyiciləri bəyannamələrini 2018-ci il yanvarın 22-dək vergi orqanına təqdim etməli, həmin müddətdə bəyannamələr üzrə hesablanmış vergiləri də tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

***2017-ci ilin 4-cü rübünə görə təqdim olunmalı vergi bəyannamələri***

- Sadələşdirilmiş vergi bəyannaməsi;
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi;
- Xüsusi notariusların gəlir vergisi bəyannaməsi;
- Dövlət rüsumu haqqında hesabat.

Qeyd olunan tədiyyəçilər vergi bəyannamələrini yanvarın 22-dən gec olmayaraq təqdim etməlidirlər.

***Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannamələri***

ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannamələri yanvarın 31-dən gec olmayaraq vergi orqanına təqdim etməli, 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergiləri isə yanvarın 22-dək ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan digər vergilərin ödəyiciləri bəyannamələri yanvarın 22-dək təqdim etməlidirlər.

Gəlir və mənfəət vergisi ödəyiciləri 2017-ci ilin 4-cü rübü üzrə hesablanmış vergiləri 2018-ci il yanvarın 15-dən gec olmayaraq ödəməlidirlər.

***Bəyannamələr müəyyən olunmuş müddətdə təqdim edilmədikdə Vergi Məcəlləsinin 57-ci maddəsinə əsasən, ödəyiciyə qarşı 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur. Vergi Məcəlləsinin 59-cu maddəsinə əsasən, vergilər vaxtında ödənilmədikdə bir ildən çox olmamaqla ötmüş hər gün üçün 0,1 % məbləğində faiz tutulur.***

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Vergi güzəşti və azadolmalar

***Müəlliməm və himayəmdə 3 nəfər ailə üzvü var. Həyat yoldaşım işləmir, övladlarım isə 3 və 4 yaşlarındadır. Bu halda mənim əməkhaqqıma hansı vergi güzəşti və azadolmalar tətbiq olunur?***

Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə görə, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30.000 manatadək olduqda isə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır.

Vergi Məcəlləsinin 102.5-ci maddəsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq, himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

Vergi Məcəlləsinin 102.6-cı maddəsinə uyğun olaraq, təqaüd, pensiya və işsizlik müavinəti alan vətəndaşlar (uşaqlardan başqa), dövlət təminatında olan şəxslər (texniki-peşə məktəblərinin şagirdləri, uşaq və körpə evlərində tərbiyə alanlar), xüsusi məktəblərin şagirdləri və internat evlərində olan, saxlanmasına görə qəyyumlardan haqq alınmayan uşaqlar, habelə tam dövlət təminatındakı məktəblər yanında internatlarda olan uşaqlar himayədə olanlara aid edilmirlər.

**Qeyd olunanlara əsasən:**

Fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu iş yerində) muzdlu işlə əlaqədar əldə etdiyi gəliri, himayəsində 3 nəfər olması ilə əlaqədar müvafiq təsdiqedici sənədlər (ər və arvaddan birinin güzəştdən istifadə edib-etməməsi barədə onların əsas iş yerindən işəgötürənin arayışı və Azərbaycan Respublikası Vergilər Nazirliyinin təsdiq etdiyi formada yerli icra hakimiyyəti və ya bələdiyyələr tərəfindən verilmiş arayış) təqdim edildiyi halda, 50 manat məbləğində azaldılır.

Qeyd edilənlərlə yanaşı, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli (2018-ci il üçün 173 manat) gəlir vergisindən azaddır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2017-ci ildə...**

- Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları dekabrın 29-na **5 mlrd. 334,6 mln.** dollar olub. Bu göstərici 2016-cı illə müqayisədə **1 mlrd. 360,2 mln.** dollar və ya 34,22% çoxdur.
- 2016-cı illə müqayisədə ölkədə pul bazası **682,7 mln.** manat və yaxud 8,69% artıb.
- Azərbaycanda fəaliyyət göstərən 21 sığorta şirkəti tərəfindən **556,866,578 mln.** manat sığorta haqqı toplanıb.
- Azərbaycanda ticarət əməliyyatlarının həcmi ümumilikdə **22 mlrd. 593 mln. 631 min** ABŞ dolları təşkil edib.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Kağız qaimə-fakturalar dövrü başa çatdı

## Yanvarın 1-dən elektron qaimələrin tətbiqinə başlanması vergi ödəyiciləri üçün bir çox üstünlüklər yaradır

2018-ci il vergi ödəyiciləri üçün bir sıra mühüm yeniliklər vəd edir. Vergi sisteminin müxtəlif sahələrini əhatə edəcək bu yeniliklərin, demək olar ki, hamısı 2016-cı ildə Vergi Məcəlləsinə edilən dəyişikliklərin tətbiqi ilə əlaqəlidir. Bu il də dəyişikliklə başlayıb: yanvarın 1-dən bütün vergi ödəyiciləri, o cümlədən bank xidmətləri göstərən təşkilatlar təqdim etdikləri mallar (işlər, xidmətlər) üçün elektron qaimə-faktura təqdim etməlidirlər. Yeniliyə əsasən, banklar göstərdikləri xidmətlərin əvəzində xərc sənədi kimi sahibkarlara elektron qaimə-faktura verməlidirlər.

Nazirlər Kabinetinin ötən ilin martında təsdiq etdiyi «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»na əsasən, ƏDV ödəyiciləri və ardıcıl 12 aylıq dövr üzrə vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər təqdim etdikləri mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, bütün digər vergi ödəyiciləri isə 2018-ci il yanvarın 1-dən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim etməlidirlər. Artıq elektron qaimənin bütün vergi ödəyiciləri üzrə tətbiqinə başlanıb və bu, o deməkdir ki, əlavə dəyər vergisində olduğu kimi, digər vergi növləri üzrə də malların satış dövriyyəsi tam şəkildə elektron qaydada nizamlanacaq və prosesə vergi orqanları tərəfindən nəzarət ediləcək.

***Qaimə-fakturaların tərtib olunması qaydaları***

Elektron qaimə-fakturaları vergi ödəyiciləri iki üsulla hazırlaya bilirlər. Birinci üsul onlayn rejimdə həyata keçirilir. Bunun üçün vergi ödəyicisi «ASAN imza»dan istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «e-qaimə» altbölməsinə daxil olmalı və onlayn rejimdə elektron qaimə-fakturanı tərtib edərək digər vergi ödəyicisinə təqdim etməlidir.

İkinci üsul isə oflayn rejimdə həyata keçirilir. Bu zaman vergi ödəyicisi elektron qaimə-fakturasını tərtib etmək üçün xüsusi proqram təminatının («Elektron Faktura Tərtibatı Proqramı (eFP)» sonuncu versiyasını və digər zəruri proqramları İnternet Vergi İdarəsinin «e-qaimə-faktura» bölməsinin «Lazımlı proqramlar» altbölməsindən öz kompüterinə yükləməlidir. Tələb olunan qaimə-fakturalar bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlanacaq və paketlənəcək. Sonra ödəyici paket faylını «Asan DOC client» proqramı vasitəsilə imzalamalıdır (bu proqramı http://asanimza.az/category/asan-doc-az/ linkindən endirmək olar). Sonda gücləndirilmiş elektron imza vasitəsindən («ASAN imza») istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «Elektron qaimə» altbölməsinə daxil olmalı və imzalanmış «adoc» tipli faylı müvafiq menyunu seçməklə sistemə yükləməlidir.

***Elektron qaimənin üstünlükləri***

Elektron qaimənin tətbiqinin vergi orqanları və vergi ödəyiciləri üçün bir sıra üstünlükləri var: bu, inzibatçılıq xərclərinin azaldılmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Elektron qaimə-fakturanın tətbiqinin digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır. Bu sistemin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən və əlavə vaxt itkisinə yol vermədən birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

> Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir

Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yarana biləcək anlaşılmazlıqların qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir. Elektron qaimə-fakturanın tətbiqi nəticəsində vergi orqanları malın hərəkətinə də nəzarət əldə edəcək ki, bu da şəffaflığı artıraraq, elektron auditin işini yüngülləşdirəcək.

Elektron qaimə-fakturanın tətbiqinə etinasız yanaşan sahibkarları isə sanksiyalar gözləyir. Səyyar vergi yoxlamaları, operativ vergi nəzarəti tədbirləri aparılarkən vergi ödəyicisinin sahibliyində qalan malın alış sənədi elektron qaimə-faktura və ya vergi hesab-fakturası, habelə idxal mallara münasibətdə gömrük bəyannamələrinin hər hansı biri olmadıqda alıcı bir təqvim ili ərzində bu cür hallara birinci dəfə yol verdikdə alış mallarının dəyərinin 10 faizi miqdarında, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox belə hallara yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyalarına məruz qalacaqlar.

Yeri gəlmişkən, Vergilər Nazirliyi tərəfindən illik dövriyyəsi 200.000 manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ vergi nəzarəti tədbirlərinin (mənbəyi bəlli olan məlumatlar əsasında və ya vergi orqanının vergi ödəyicisi barəsində apardığı araşdırma nəticəsində vergidənyayınma riski yuxarı olan vergi ödəyiciləri, əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət, habelə dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsi müvəqqəti olaraq dayandırılıb.

**Elxan SALAHOV**

# Azərbaycanda investisiya banklarının yaradılmasına ehtiyac var

Respublikamızın gələcək inkişaf hədəflərini özündə əks etdirən «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə müəyyən edilmiş istiqamətlərdən biri investisiya siyasətinin şaxələndirilməsi, yeni maliyyə alətlərinin tətbiqidir.

İnvestisiya sahəsi üzrə mütəxəssis, «AzFinance» investisiya şirkətinin rəhbəri Abid Məmmədov bildirib ki, hazırda kapital bazarlarında baş verən proseslər və müasir iqtisadi çağırışlar Azərbaycanda investisiya bankının xidmətlərinə ehtiyac və tələbatın olmasını zərurətə çevirib. Avropa, Asiya və Amerika qitələrində investisiya bankları maliyyə sisteminin başlıca aparıcı institutları hesab olunur və iri bank müəssisələri ilə tərəfdaşlıq quraraq geniş və çoxtərəfli maliyyə əməliyyatçısı rolunda çıxış edir. Bu banklar dövlət orqanları, korporasiyalar və digər maliyyə qurumları ilə iri layihələr həyata keçirir, kapital yığımı ilə məşğul olur, investorları cəlb etməklə iqtisadi sektorlara pul yönəldilməsinə, qiymətli kağızların emissiyası və alğı-satqısına kömək göstərirlər. İnvestorlara və fərdi şəxslərə geniş maliyyə xidmətləri göstərən həmin banklar konsaltinq əməliyyatlarından tutmuş, investisiya bankının müştərilərinə konsolidasiya və ticarət əməliyyatlarında da yardımçı olurlar. Buna görə də biznes sahibləri, maliyyə qurumları və vətəndaşlar investisiya bankları ilə sıx işləyirlər.

İnvestisiya bankı özəl şirkətlərin, sərmayədarların investisiyalarının iqtisadi bölmələrdə şaxələndirilməsi ilə yanaşı, vətəndaşların öz maliyyə vəsaitlərini də müxtəlif sahələrə yönəltməklə gəlir əldə etmələri üçün mühüm əhəmiyyət daşıyır. Hazırda müştərilər ənənəvi bank xidmətlərinə üstünlük verirlər. İnsanlar öz vəsaitlərini, əsasən, bank depozitlərinə və ya daşınmaz əmlaka yatırırlar. Dünya bank sistemində isə vətəndaşlar öz vəsaitlərini daha çox investisiya şirkətləri və banklarına yatıraraq, onların təqdim etdikləri maliyyə alətlərindən dividend götürürlər. Bank depozitləri valyuta dəyişkənlikləri səbəbindən əksər insanlar üçün maraqlı deyil, xüsusilə də xarici valyutaların dividentlik gəlirliliyinin çox aşağı olması əksər depozit sahiblərinin vəsaitlərini digər sahələrə yönəltmək seçimi qarşısında qoyub. Ona görə də məqsəd Azərbaycanda insanlarda mövcud olan bu vərdişi aradan götürmək və standart investisiyalardan yeni investisiya alətlərinə yönləndirməkdir. Bu prosesdə aparıcı rolu isə investisiya bankları oynaya bilər.

> Dünya bank sistemində vətəndaşlar öz vəsaitlərini daha çox investisiya şirkətləri və banklarına yatıraraq, onların təqdim etdikləri maliyyə alətlərindən dividend götürürlər

Maliyyə-bank mütəxəssisi Orxan Məmmədovun sözlərinə görə, hazırda banklar müxtəlif xidmət çeşidləri vasitəsilə biznes sektoruna sərfəli kreditlər verir, iqtisadiyyata investisiya qoyuluşlarında iştirak edirlər. Amma bu, yetərli deyil və bankların daha güclü və əhatəli investisiya strategiyası həyata keçirməsi zəruridir. İnvestisiya bankı vahid və mərkəzi institut kimi həmin siyasəti yerinə yetirə bilər. Hökumətin müəyyən etdiyi hədəflərə əsasən, 2018-2020-ci illər üzrə qeyri-neft sektoruna, xüsusilə də regionların inkişafına, yeni rəqabətədavamlı müəssisələrin, sənaye texnoparklarının, aqrar parkların yaradılmasına yönəldilən özəl sərmayələrin xüsusi çəkisinin artırılması nəzərdə tutulur. Bu siyasətə uyğun olaraq, investisiya bankının əsas prioriteti də həmin sahələrə sərmayələrin təşviqi və yönəldilməsi olacaq.

Avropa İnvestisiya Bankı da Azərbaycanda investisiya bankının yaradılmasını məqsədəuyğun hesab edir. Bankın ekspertlərinin fikrincə, belə bir maliyyə qurumunun fəaliyyətə başlaması kiçik və orta sahibkarlığın maliyyə vəsaitləri ilə təmin olunması imkanlarını yaxşılaşdıra və fəaliyyətini stimullaşdıra bilər. Bu, investorlarla birgə ölkə iqtisadiyyatının müxtəlif sektorlarına özəl sərmayələrin yönəldilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının idarə rəisi Ruslan Babayev isə mətbuata verdiyi açıqlamasında bildirib ki, gələcək inkişaf hədəflərinə əsasən, bankların investisiya xidməti göstərməsi də nəzərdə tutulub. Bununla əlaqədar qanunvericiliyə müəyyən dəyişikliklərin edilməsi gözlənilir. Bankların investisiya xidməti göstərməsi üçün lisenziyalaşdırma, hansı xidmətlərin göstərilməsinə razılıq verilməsi məsələləri nəzərə alınacaq. 2018-ci il ərzində həmin təkliflərin qəbul olunması gözlənilir.

**ELBRUS**

# İqtisadi islahatlar qısa zamanda bəhrəsini verib

Azərbaycan Respublikası Prezidenti Administrasiyası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və «Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi» üzrə İqtisadiyyat Nazirliyinin rəhbərliyi ilə yaradılmış işçi qrupun birgə iclasında təfsilatlı tədbirlər planı müzakirə edilib.

Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Strateji yol xəritələrinin icrası, monitorinqi və qiymətləndirilməsi, bütövlükdə idarəetmənin səmərəliliyinin, şəffaflığının və hesabatlılığının daha da artmasını təmin edir. Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar qısa zamanda öz nəticələrini verib: 2017-ci il sabitləşdirmə ili olaraq qeyri-neft ixracının artması, makroiqtisadi sabitlik və infrastrukturun daha da yaxşılaşdırılması ilə yadda qalıb. Strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə metodologiyasının inkişafında BMT İnkişaf Proqramı və Dünya Bankı yaxından iştirak edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində bütün Strateji Yol xəritələri üzrə yaradılmış işçi qrupları ilə təfsilatlı tədbirlər planının müzakirəsi davam etdirilir. Burada məqsəd Strateji yol xəritələrində nəzərdə tutulmuş tədbirlərin icrasının sürətləndirilməsi məqsədilə İİTKM ilə icraçı qurumlar arasında koordinasiyanın daha da gücləndirilməsindən ibarətdir.

Qeyd edək ki, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanına uyğun olaraq, Strateji yol xəritələrində nəzərdə tutulmuş fəaliyyətlərlə bağlı monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərini İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirir. Məqsəd ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqla, analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlamaqdan, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin etməkdən, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil etməkdən ibarətdir.

# İşsizliyin aradan qaldırılması dövlətin prioritetlərindəndir

## Keçən il Azərbaycanda, 177 mini daimi olmaqla, 221 min yeni iş yeri açılıb

**Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev diqqəti bu göstəriciyə yönəldərək demişdir: «Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir. Onu da qeyd etməliyəm ki, keçən il 47 min iş yeri bağlanmışdır. Bu da təbii prosesdir. Ancaq, eyni zamanda, biz ciddi təhlil aparmalıyıq, görməliyik ki, hansı səbəblər üzündən 47 min iş yeri bağlanmışdır. Ancaq bununla belə, 177 min daimi iş yerinin açılması, 47 min iş yerinin bağlanması yenə də burada müsbət saldonu təmin edir və beləliklə, ölkəmizdə işsizliyin aşağı səviyyədə saxlanması üçün yaxşı imkanlar yaradır».**

Azərbaycan Prezidentinin hökumət qarşısında qoyduğu vəzifələrdən biri də işsizliyin aradan qaldırılması, işsiz vətəndaşların münasib işlərlə təmin olunması, onların peşə ixtisaslarına yiyələnərək öz işlərini qurmaları və digər bu kimi problemlərin həlli istiqamətində tədbirlərin görülməsidir.

Bununla yanaşı, məşğul əhalinin rifah halının yüksəldilməsinə böyük əhəmiyyət verilir. Ötən il ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən təxminən 6,2 faiz artaraq 525 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur. Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2017-ci il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 521,2 min nəfər olmuş, onlardan 881,1 mini iqtisadiyyatın dövlət sektorunda, 640,1 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 21,8 faizi təhsil; 19,1 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri; 13 faizi sənaye; 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 7,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat; 6,6 faizi tikinti; 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı; 3,4 faizi peşə, elmi və texniki fəaliyyət; 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 1,6 faizi maliyyə və sığorta fəaliyyəti; 10,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirildiyinə görə, əmək bazarına 111 min nəfər gənc işçi qüvvəsinin daxil olduğu 2017-ci ildə bazarın sabitliyi qorunub saxlanılmışdır. Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemində qeydiyyata alınmış, əmək müqavilələrinin sayı ötən il 44 min 700 ədəd artmışdır. Əmək bazarında sabitləşmənin mühüm göstəricilərindən biri də iş üçün məşğulluq mərkəzlərinə edilən müraciətlərin sayının azalmasıdır. 2016-cı ildə bu məqsədlə məşğulluq orqanlarına 204 min müraciət olunmuşdusa, 2017-ci ildə bu göstərici 1,7 dəfə azalaraq 118 minə enmişdir.

Ötən il ümumilikdə dövlət məşğulluğu tədbirləri hesabına 41 min 400 nəfər işaxtaran iş yeri ilə təmin olunmuşdur. Bundan əlavə, regionlarda kənd təsərrüfatının müxtəlif sahələrinin sürətli inkişafı 200 min nəfərdən çox insanı istehsal prosesinə cəlb etməyə imkan vermişdir. İl ərzində məşğulluq orqanları tərəfindən ümumilikdə 47 min 900 nəfər işlə təmin edilmiş, 1160 nəfər haqqı ödənilən ictimai işlərə, 3560 nəfər peşə hazırlığı kurslarına, 3120 nəfər müvəqqəti xarakterli işlərə cəlb olunmuş, 14 min 820 nəfərə isə işsizlik müavinəti təyin edilmişdir.

Aztəminatlı ailələrin aktiv məşğulluq proqramlarına cəlb olunmasını nəzərdə tutan özüməşğulluq layihəsi çərçivəsində 76 şəhər və rayon üzrə 1172 ailə aktivlərlə təmin edilərək kiçik ailə təsərrüfatları yaratmışdır. Bu təsərrüfatlar barədə məlumatların «ABAD» mərkəzlərinə ötürülməsi barədə razılığa gəlinmişdir ki, bu da onların məhsullarının satışında ciddi rol oynayacaq. Hazırda həmin ailə təsərrüfatlarının mütəmadi monitorinqi aparılmaqdadır. Proqnozlara əsasən, normativ hüquqi baza yaradılmaqla yeni fəaliyyətə başlayan işsizlikdən sığorta sistemi özüməşğulluq proqramlarında vətəndaşların iştirak imkanlarını bu il 6 dəfəyə yaxın artıracaq. Bu tədbirlər üçün İşsizlikdən Sığorta Fondunun büdcəsində 35,8 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də işaxtaran və işsiz vətəndaşların münasib işlərlə təminatında mühüm rol oynayan əmək yarmarkalarıdır. 2017-ci ildə respublikamızın 57 rayon və şəhərində əmək yarmarkaları keçirilmiş, işaxtaran və işsiz vətəndaşlara aidiyyəti rayon və şəhərlərdə fəaliyyət göstərən müəssisələr üzrə boş (vakant) iş yerləri təklif olunmuşdur. Yarmarkalar zamanı 4 min nəfərə yaxın şəxsə seçdikləri və peşə bacarıqlarına, əmək vərdişlərinə uyğun olan vakant iş yerlərinə göndərişlər verilmişdir. Bu vətəndaşlardan 100 nəfərə yaxını sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər olmuşdur ki, onlar işlə təmin edilmək üçün kvota əsasında ayrılmış iş yerlərinə göndərilmişlər. Əmək yarmarkalarında göndəriş verilən şəxslərdən artıq 88 faizi işlə təmin olunmuşlar.

Qeyd olunan aktiv məşğulluq tədbirlərində 114 vətəndaşa haqqı ödənilən ictimai işlərə göndəriş verilmişdir. Peşə və ixtisası olmadığı üçün özünə münasib iş yeri tapa bilməyən, yaxud peşə və ixtisasına uyğun gələn iş tapa bilməyən, bu səbəbdən yeni peşəyə yiyələnmək istəyən 245 nəfər əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunmaq üçün qeydiyyata alınmışlar.

Bundan başqa, ötən il Dövlət Məşğulluq Xidməti tərəfindən Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir şəhərlərində yerləşən ümumilikdə 10 ali təhsil müəssisəsində tələbə və məzunların əmək bazarına çıxışının dəstəklənməsi məqsədilə «Karyerada ilk addım» devizi altında aktiv məşğulluq tədbirləri də təşkil olunmuşdur. Bu tədbirlərdə tələbə və məzunlara işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlərə müvafiq ixtisaslar üzrə kadrların seçimini aparmaq imkanı yaradılmış, həmçinin boş (vakant) iş yerlərinə göndərişlər verilmiş, ixtisasartırma kurslarına cəlb edilmək istəyənlərin qeydiyyatı aparılmışdır.

Muzdla işləyənlərin nisbəti (faizlə)




**Yeri gəlmişkən, ölkədə aparılan iqtisadi islahatlar vergi ödəyicilərinin sayının artmasına və nəticə etibarilə yeni iş yerlərinin yaranmasına, məşğulluğun genişlənməsinə səbəb olmuşdur. 2018-ci il yanvarın 1-i vəziyyətinə Azərbaycanda dövlət qeydiyyatında olan vergi ödəyicilərinin sayı 907.932-yə çatmışdır.**
**Onu da qeyd edək ki, ötən il yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin ümumi sayı ləğv olunmuş və fəaliyyətini dayandırmış vergi ödəyicilərinin cəmindən çox olmuşdur. Hüquqi şəxslər üzrə bu fərq 6364, obyektlərin sayı üzrə isə 22038 təşkil etmişdir, yəni hər iki halda saldo müsbətdir.**

**Rəşad SADIQOV**

# Xidmət mərkəzləri vergi ödəyicilərinin işini asanlaşdırır

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi orqanı olmayan iri şəhər və rayonlarda yaradılmış vergi ödəyicilərinə xidmət mərkəzlərində vergi ödəyicilərinə müasir standartlara uyğun xidmətlər göstərilir. Hazırda ölkəmizdə 57 belə mərkəz mövcuddur.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən bildirildiyinə görə, ötən il xidmət mərkəzlərində ümumilikdə 486 min 318 vergi ödəyicisi qəbul edilmiş, onlara 744 min 149 xidmət göstərilmişdir. Vahid standartlara əsasən, burada 98 adda xidmət göstərilir və bu xidmətlərin əksəriyyətinin elektron analoqu yaradılmışdır.

Xidmət mərkəzlərində vergi ödəyicilərinə elektron xidmətlərin tətbiqi üzrə keçən təlimlərdə bu xidmətdən istifadə prosesi əyani olaraq göstərilir ki, sahibkarlar öz işlərində ondan sərbəst şəkildə istifadə edə bilsinlər. Bu məqsədlə xidmət mərkəzlərində özünəxidmət kompüterləri quraşdırılmışdır.

Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlərin təşviqi məqsədilə xidmət mərkəzlərində elektron xidmətlərdən istifadə etmiş vergi ödəyicilərinin sonrakı dövrdə sərbəst istifadəetmə səviyyəsini əks etdirən özünəxidmətə keçid meyarı tətbiq olunur. Bu meyar üzrə ilkin olaraq 2017-ci il üçün 30% səviyyəsində hədəf müəyyən edilmiş, növbəti dövrlərdə isə həmin göstəricinin artırılması nəzərdə tutulmuşdur.

Yeri gəlmişkən, dövlət başçısının 27 aprel 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş «Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»nın 8.6-cı bəndinə əsasən, 2016-2018-ci il illər ərzində «ASAN xidmət» mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı «Şəffaflıq Azərbaycan» Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi tərəfindən paytaxtın Nəsimi rayonunda yerləşən Vergi Ödəyicilərinə Xidmət Mərkəzində monitorinq keçirilmişdir. Qiymətləndirmə «ASAN xidmət» mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartları - rahatlıq, operativlik, nəzakətlilik, məsuliyyət və vətəndaş məmnuniyyəti meyarları əsasında aparılmışdır. Monitorinqin nəticəsinə görə, bu xidmət mərkəzi dövlət qurumları arasında 5 ən yaxşı asanlaşan xidmət mərkəzindən biri kimi müəyyən edilmişdir.

2017-ci ildə vergi ödəyicilərinə xidmət mərkəzlərində qəbul edilmiş şəxslər və göstərilmiş xidmətlərin sayı




**Aytən NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Asiya İnkişaf Bankı Strateji yol xəritələrində nəzərdə tutulan tədbirlərə texniki dəstək verəcək.

İpoteka kreditləri üzrə zəmanət mexanizminin 2018-ci ilin ilk rübündə tətbiqinə başlanılması nəzərdə tutulur.

Azərbaycanda alternativ və bərpaolunan enerji potensialının qiymətləndirilməsi prosesi başa çatdırılıb.

Azərbaycan təbii qazını Avropaya daşıyacaq «Trans-Adriatik» (TAP) qaz boru kəməri layihəsi yanvarın 29-31-də Vyanada keçiriləcək XI Avropa Qaz Konfransında (European Gas Conference 2018) əsas müzakirə mövzusu olacaq.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC- dən bildirilib ki, 2016-cı ilin sentyabrından tətbiq olunan e-bilet xidmətindən yararlanmaqla Ro-Ro və bərə gəmiləri ilə müxtəlif tipli avtomobillər və sərnişin daşımaq mümkündür.

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən beynəlxalq «CAPSAT 2018» rabitə və peyk sərgisində Azərbaycan da təmsil olunur.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən fevralın 13-də dövlət əmlakının özəlləşdirilməsi üzrə növbəti hərrac keçiriləcək.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
| --- | --- |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Elektron bankçılıq xidmətləri həyatımıza nüfuz edir

Bu gün məsafədən bank əməliyyatlarının əksəriyyəti internet bankçılıq vasitəsilə reallaşdırılır. İnternet imkanlarının və terminalların əhatə dairəsinin genişləndiyi, mobil telefonların kütləvi şəkildə istifadə edildiyi bir şəraitdə banklar və qeyri-bank təşkilatları öz müştərilərinə yeni ödəniş xidmətləri təqdim etməyə can atırlar. Bu yolla həyata keçirilən ödənişlər digər elektron avadanlıqlarla müqayisədə elektron pərakəndə ödənişləri sahəsində sadə istifadə qaydası, uyğunluğu və rahatlığı ilə fərqlənir.

Elektron bankçılıq banklar tərəfindən müvafiq proqram təminatı, həqiqiliyin elektron formada müəyyən edilməsi metodu və kommunikasiya vasitələrinin istifadəsi ilə vətəndaşların öz hesabları vasitəsilə ödənişlərin həyata keçirilməsi, apardıqları əməliyyatlar üzrə məlumatın əldə edilməsi və digər xidmətlərin məsafədən idarə olunmasına imkan verən informasiya texnologiyaları məhsulu başa düşülür. Müştərilər şəxsi kompüter, elektron planşet tələb olunan proqram təminatına malik mobil telefon, bankomat, köşk və yaxud adi «touch tone» funksiyalı telefon kimi elektron qurğulardan istifadə etməklə elektron bankçılıq xidmətlərinə giriş əldə edirlər.

Bank üzrə mütəxəssis Yusif Abdullayevin sözlərinə görə, bank xidmətlərinin təqdim edilməsi xarakterinə görə elektron bankçılığı, məlumat və tranzaksiya xarakterli olmaqla, iki qrupa bölmək olar: «Məlumat xarakterli elektron bankçılıq yalnız informasiyanın əldə edilməsinə əsaslanır. Bu xidmət vasitəsilə bank öz məhsul və xidmətləri barədə informasiyanı müştərilərinə çatdırır. Bundan əlavə, bank sistemləri ilə müştəri arasında bəzi qarşılıqlı əlaqənin qurulmasına imkan yaranır. Yəni daxili poçt xidməti (e-mail), balansa nəzarət, kredit almaq üçün onlayn müraciət, yaxud müştəri haqqında bəzi şəxsi məlumatların yenilənməsi kimi xidmətlər həyata keçirilir. Tranzaksiya xarakterli elektron bankçılıq müştərilərə ödənişlərin aparılması, vəsaitin hesabdan-hesaba köçürülməsi, konvertasiya əməliyyatının aparılması və s. kimi bank xidmətlərini həyata keçirməyə imkan verir. Bankın bir sıra daxili sistemlərinin internet şəbəkəsi və ya hər hansı kommunikasiya kanalları ilə əlaqəsinin olması bu növ xidmət üçün risk yaradır və bank tərəfindən risk əsaslı bir çox tədbirlərin həyata keçirilməsini zəruriləşdirir».



Göstərilən elektron xidmətlərə kredit təşkilatlarının qoşulması, müvafiq səlahiyyət və öhdəliklərin müəyyən edilməsi məqsədilə kollektiv saziş hazırlanmış və kommersiya banklarının ardıcıl olaraq sazişə qoşulmaları təmin edilməkdədir

Y.Abdullayevin sözlərinə görə, məlumat mübadiləsi zamanı yüksək informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə Mərkəzi Bankda yaradılmış və 2014-cü ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən akkreditasiya edilmiş Bank Sertifikat Xidmətləri Mərkəzinin (BSXM) elektron imza alətlərinin yalnız Mərkəzi Bankın operatoru olduğu informasiya resurslarına, ödəniş və hesablaşmalar sistemlərinə deyil, həmçinin kredit təşkilatlarının müştərisi olan hüquqi və fiziki şəxslər üçün təklif edilən elekton bankçılıq və «müştəri-bank» xidmətlərində tətbiqinə başlanılıb: «Bu hədəfin gerçəkləşdirilməsi çərçivəsində BSXM tərəfindən göstərilən elektron xidmətlərə kredit təşkilatlarının qoşulması, müvafiq səlahiyyət və öhdəliklərin müəyyən edilməsi məqsədilə kollektiv saziş hazırlanmış və kommersiya banklarının ardıcıl olaraq sazişə qoşulmaları təmin edilməkdədir. Bu il hesablaşmaların, standart və təcili ödənişlərin, vergi və ya digər büdcə ödənişlərinin, o cümlədən valyuta mübadiləsi xidmətlərinin daha effektiv təşkili məqsədilə «Business-to-business» layihəsi çərçivəsində məlumat mübadiləsinin təhlükəsizliyi BSXM-in elektron imza sertifikatları vasitəsilə təmin edilmiş və banka təqdim olunan bütün ödəniş tapşırıqlarının müştəri tərəfindən elektron imza ilə təsdiq edilərək avtomatlaşdırılmış qaydada göndərilməsinə başlanılıb».

Qeyd edək ki, Mərkəzi Bank tərəfindən bank sektorunda müasir informasiya texnologiyaları infrastrukturunun yaradılması və rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir və yaxın zamanlarda digər bankların da öz müştərilərinə BSXM-in xidmətlərindən istifadə imkanı yaratması planlaşdırılır.

**Fəxriyyə İKRAMQIZI**

# Bələdiyyələrin faktiki səlahiyyətlərinin genişləndirilməsinə ehtiyac var

Azərbaycanda bələdiyyə fəaliyyətinin müasir dövrün tələbləri səviyyəsində qurulması məsələsi problem olaraq qalmaqdadır. İlk növbədə onu qeyd edək ki, öz büdcələrini formalaşdırmaq üçün bələdiyyələrə bir sıra vergilərin toplanması səlahiyyətləri verilmişdir. Bu gün bələdiyyələrin Vergi Məcəlləsi ilə müəyyən edilmiş və bələdiyyə büdcəsinə ödənilən bu vergiləri yığmaq səlahiyyətləri var:

- fiziki şəxslərin torpaq vergisi;
- fiziki şəxslərin əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Müşahidələr göstərir ki, bələdiyyələr toplamalı olduqları vergiləri yığmaqda çətinlik çəkirlər, nəticədə onların maliyyə balansı pozulur və üzərlərinə düşən işlərin öhdəsindən gələ bilmirlər. Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Tahir Rzayevin sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən bələdiyyələr qanunun onlara verdiyi imkanlardan istifadə edə bilmirlər: «Yaxşı işləyən bələdiyyələrimiz də var, ancaq onlar azlıq təşkil edir. Ona görə də 1200-ə yaxın bələdiyyə birləşdirildi və ya ixtisar olundu. Mənə elə gəlir ki, bu proses davam etdirilməlidir. Çünki maliyyə bazası olmayan bələdiyyə heç kimə lazım deyil. İşləyə bilməyən bələdiyyələrə qanun icazə verir ki, özlərini buraxsınlar. Yaxud vətəndaşların da belə bir səlahiyyəti var ki, yerlərdə yığıncaqlar keçirsinlər və bələdiyyələri ləğv etsinlər. Çünki bələdiyyələr seçicilərin özləri tərəfindən yaradılan bir təşkilatdır».

Millət vəkilinin sözlərinə görə, Azərbaycanda uşaq bağçası, məktəb və xəstəxanası olan bələdiyyələr yoxdur: «Qanunla bələdiyyələrə uşaq bağçası, məktəb və xəstəxana tikməyə icazə verilir. Bunun üçün isə onların maliyyə bazası olmalıdır. Bizim bələdiyyələrimizdə kifayət qədər vəsait yoxdur. Yerli özünüidarəetmə orqanlarının xidmət sahəsi çoxdur, amma heç nə edə bilmirlər. Xarici ölkələrdə bələdiyyələr bağça, məktəb tikdirən zaman bələdiyyə sakini olan və ya orada fəaliyyət göstərən iş adamları buna diqqət göstərirlər. Bizdə isə belə təşəbbüslər yoxdur».

İqtisadçı-ekspert Vüqar Bayramov hesab edir ki, Azərbaycanda yerli özünüidarəetmə orqanlarının mövcud maliyyə vəziyyəti onların öz səlahiyyətlərindən istifadə etməsinə çətinlik yaratdığı üçün bu gün bələdiyyələrin regionların inkişafına təsir imkanları xeyli məhduddur. Bu baxımdan, onların faktiki səlahiyyətlərinin genişləndirilməsinə ciddi ehtiyac var».

Qeyd edək ki, ötən il bəzi qanunvericilik aktlarına bələdiyyələrin səlahiyyətlərinin artırılması ilə bağlı müəyyən müddəalar daxil edilib: «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» Qanunun 7-ci (Yerli büdcənin gəlirləri) maddəsinin 1.6-cı bəndinə edilən Əlavədə yerli büdcənin gəlirləri sırasına bələdiyyə yollarında təşkil edilmiş parklanma yerlərindən daxil olan vəsaitin də bələdiyyə büdcələrinə köçürülməsi nəzərdə tutulur. Bundan başqa, Azərbaycanda yaşıllıqların salınması və bərpası üçün əkin materialları yerləşdirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən torpaq sahələri ayrılacaq. «Yaşıllıqların mühafizəsi haqqında» Qanuna təklif edilən dəyişikliyə əsasən, yaşıllıq salınması məqsədilə bələdiyyələr, qeyri-hökumət təşkilatları və əhali müvafiq icra hakimiyyəti orqanı tərəfindən əkin materialları, avadanlıq, inventor və digər vasitələrlə əvəzsiz təmin olunurlar. Həmçinin bu məqsədlə müvafiq icra hakimiyyəti orqanı tərəfindən torpaq sahələri ayrılır. Dəyişikliyə əsasən, yaşıllıqların uçotu, kadastrı və monitorinqi haqqında məlumatları bələdiyyələr və müvafiq icra hakimiyyəti orqanları toplayacaq. Bələdiyyələrə, həmçinin, qəbiristanlıqların saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi, həmçinin dəfn xidmətlərinin təşkili üçün də səlahiyyətlər verilib. Bu məsələ də «Bələdiyyələrin statusu haqqında» Qanuna dəyişikliklərdə öz əksini tapıb.

**Rəşad SADIQOV**

## SADƏLƏŞDİRİLMİŞ VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən **2017-ci ilin 4-cü rübünə görə** sadələşdirilmiş verginin bəyannaməsi **2018-ci ilin yanvar ayının 22-dən** (yanvarın 20-si və 21-i qeyri-iş günü olduğuna görə) gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

Bəyannamə internet vasitəsilə elektron formada və ya kağız daşıyıcıda tərtib olunaraq poçt vasitəsilə vergi orqanına göndərilə bilər. Vaxt, tərtib edilmə və resurslara qənaət baxımından internet vergi idarəsinə (www.e-taxes.gov.az) daxil olmaqla bəyannamənin onlayn tərtib edilərək göndərilməsi daha əlverişlidir. Bunun üçün isə gücləndirilmiş elektron imza, o cümlədən «Asan imza» və ya vergi orqanından əldə edilmiş istifadəçi kodu, parol və şifrə tələb olunur. Hazırda vergi ödəyicilərinin mütləq əksəriyyəti elektron sənəd mübadiləsinə qoşulmuşdur.

Bəyannamənin internet vasitəsilə göndərilməsi üçün, ilk növbədə, Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında (www.e-taxes.gov.az) «**GİRİŞ**» düyməsi və «**Sistemə giriş səhifəsi**»nin «**E-bəyannamə, ƏDV-DH və ŞHV**» alt bölməsi seçilir. Sonra istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza («ASAN imza») məlumatları müvafiq xanalara daxil edilir, açılan pəncərənin «**E-bəyannamə**» blokundakı «**On-line sadələşdirilmiş bəyannamə**» alt menyusunda bəyannamə onlayn qaydada tərtib edilir. Daxil edilmiş məlumatlar yoxlanılaraq təsdiq edilməklə bəyannamə vergi orqanına göndərilir. Həmin bölmədə bəyannamənin göndərilməsi barədə «Bildiriş»ə baxmaq və ya çap etmək mümkündür.

2017-ci ilin 4-cü rübü üzrə sadələşdirilmiş verginin bəyannaməsi 1 nömrəli Əlavə ilə birlikdə sahibkarlıq fəaliyyəti məqsədləri üçün istidadə edilən 1-dən artıq təsərrüfat subyekti (obyekti) olduqda 3 nömrəli Əlavə ilə birlikdə tərtib edilərək vergi orqanına göndərilir.

1 nömrəli Əlavə aparılmış illik uçot məlumatlarına uyğun olaraq aktivlərin və kapital və öhdəliklərin hərəkəti (mədaxili, məxarici), hesabat ilinin əvvəlinə və sonuna olan dəyəri əks etdirilməklə tərtib edilir.

Nəzərə almaq lazımdır ki, həmin Əlavənin «**Cəmi aktivlər**» və «**Cəmi kapital və öhdəliklər**» sətirlərinin «Hesabat dövrünün əvvəlinə» və “Hesabat dövrünün sonuna” sütunlarındakı rəqəmlər bərabər olmalıdır.

3 nömrəli Əlavədə təsərrüfat subyektlərinin (obyektlərinin) adı, onların yerləşdiyi ünvan üzrə vergi uçotunda olmasını təsdiq edən 15 rəqəmli kod, qeydiyyat sənədlərinə əsasən yerləşdiyi ünvan, əsas və əlavə sahələri, fəaliyyət sahəsi üzrə təsnifatı, fəaliyyət növünün kodu və adı, obyekt üzrə muzdlu işlə əlaqədar gəlir əldə etmiş işçilərin, o cümlədən müvəqqəti işçilərin sayı, obyekt üzrə hesabat dövrü ərzində təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyəri və həmin mallara (iş, xidmətlərə) görə əldə edilmiş hasilatın ümumi məbləği barədə məlumatlar əks etdirilir.

Sadələşdirilmiş verginin bəyannaməsinin və onun əlavələrinin tərtib edilmə qaydası barədə ətraflı məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytının «Faydalı» bölməsinin “Sadələşdirilmiş verginin ödəyiciləri üçün Praktiki Vəsait” alt bölməsində və Vergilər Nazirliyinin «YouTube» videohostinqindəki kanalında yerləşdirilmiş **video təlimatlar** ilə tanış ola bilərsiniz:
www.youtube.com/watch?v=3nIeIrGgdP0w
ww.youtube.com/watch?v=nIdnufbA2KQ

Hər hansı səbəbdən bəyannamənin elektron formada göndərilməsi mümkün olmadıqda, bəyannamə forması nazirliyin rəsmi internet saytının «Bəyannamə» bölməsindən əldə etməklə kağız daşıyıcıda tərtib edilərək poçt vasitəsilə vergi orqanına göndərilə bilər.

Maliyyə itkilərinə məruz qalmamaq üçün vergi bəyanaməsini vaxtında və düzgün tərtib edərək vergi orqanına təqdim edilməsi tövsiyə olunur.

Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və Vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Argentina korporativ verginin dərəcəsini azaldıb

2018-ci ilin dövlət büdcəsində korporativ verginin dərəcəsinin 36 faizdən 30 faizə endirilməsi və 2020-ci maliyyə ilinədək beş faiz də azaldılması nəzərdə tutulmuşdur. Bu dəyişikliyin Argentina iqtisadiyyatının rəqabət qabiliyyətini artıracağı və korporativ vergi rejiminin effektivliyini yüksəldəcəyi gözlənilsə də, bu addımın atılması gəlirlərin bölgüsündən tutulan verginin artması ilə bağlı olmuşdur. Dividendlərin bölgüsü yeddi faizlik dərəcə ilə vergiyə cəlb ediləcək, 2013-cü ilin 13 yanvarından isə artırılaraq gəlirin 13 faizinə çatdırılacaq. Bu isə bir sıra korporasiyalar üçün korporativ vergitutmanın üstünlüklərinə mənfi təsir göstərəcək.

İndiyədək bu ölkədə korporativ payçılara verilən dividendlər vergidən azad edilirdi. Dividendlərin bölgüsü üzrə vergiyə cəlb olunan həddən artıq 35 faizlik «bərabərləşdirmə vergisi» adlanan vergi isə həm rezidentlərdən, həm də qeyri-rezidentlərdən tutulurdu. Büdcə təsdiqlənərkən bu vergi 2018-ci il yanvarın 1-dən ləğv edilmişdir

Büdcəyə milli valyutanın sabitləşdirilməsi üçün nəzərdə tutulan maliyyə əməliyyatları üzrə vergi də daxil edilmişdir.

# Kiçik müəssisələr «pilləkən vergisinin» ləğvinə tərəfdardır

Böyük Britaniyanın Kiçik Müəssisələr Federasiyası vergi məhkəməsinin qərarı nəticəsində meydana gəlmiş «pilləkən vergisinin» ləğvi barədə hökumətin qərarını bəyəndiyini bildirmişdir. Məhkəmənin qərarına əsasən, ofisləri ayrıca mərtəbələri tutan müəssisələrdən verginin xüsusi kommersiya dərəcələri ilə (kommersiya əmlakı üçün vergi) tutulması tələb edilir. Bu qərarın verilməsi onunla nəticələnmişdir ki, bir sıra müəssisələr kiçik biznes üçün nəzərdə tutulan vergi güzəştlərindən məhrum edilərək daha yüksək vergi öhdəliyi daşımalı olmuşlar.

Birləşmiş Krallığın icmalar üzrə katibi Sacid Cavid qeyd olunan verginin ləğvi ilə bağlı qanun layihəsini ictimaiyyətə açıqlamışdır. Açıqlamada bildirilir ki, «pilləkən vergisi» müəssisələr üçün vergi dərəcəsinin ədalətsiz şəkildə artırılmasına səbəb olur. İllər boyunca eyni binada fəaliyyət göstərən müəssisələr ümumi liftlərə və ya pilləkən keçidlərinə görə vergi ödəməli idilər.

Hökumətin bu qərarının parlamentdə təsdiqlənəcəyi gözlənilir.

# İnternetdən ƏDV tutulacaq

Macarıstanda internet xidmətlərindən istifadə üçün əlavə dəyər vergisinin dərəcəsinin beş faizə salınması ilə bağlı tədbirlər davam etdirilir. Belə görünür ki, Avropa İttifaqı qanunlarına zidd olsa belə, Macarıstan bu istiqamətdə irəliləməkdən daşınmayacaq. Məsələ bundadır ki, Avropa İttifaqının əlavə dəyər vergisi ilə bağlı Direktivinin III Əlavəsinə ƏDV-nin aşağı dərəcəsinə aid edilə biləcək xidmət və malların siyahısı daxil edilməmişdir.

ƏDV rejimi ilə bağlı dəyişiklik ölkənin 2017-ci il üçün dövlət büdcəsi təsdiqlənərkən nəzərdə tutulmuşdu. Qeyd edilmişdi ki, 2017-ci il üzrə dövlət büdcəsində bu cür xidmətlərdən tutulan ƏDV-nin dərəcəsi 27 faizdən 18 faizə endiriləcək. Həmin vaxt Avropa İttifaqının vergi məsələləri üzrə komissarı Pyer Moskovisi internetdən istifadə xidmətlərini Direktivinin III Əlavəsinə ƏDV-nin aşağı dərəcəsinə aid edilə biləcək xidmət və malların siyahısına daxil olunmasını təklif etmişdi.

# Rusiya banklarını Avropada böyük cərimələr gözləyir

Rusiyanın aparıcı informasiya mənbələrindən olan «İzvestiya» qəzetinin məlumatına əsasən, ölkə bankları öz informasiya texnologiyaları sistemlərini müəyyən edilmiş vaxtda hazır vəziyyətə gətirə bilməyəcəklər ki, xarici müştərilər barədə informasiyanı mübadilə üçün Federal Vergi Xidmətinə (FVX) ötürə bilsinlər. FVX-nın götürdüyü beynəlxalq öhdəliyə görə, həmin informasiyalar bu ilin may ayından 48 tərəfdaş ölkəyə göndərilməlidir, banklar bu öhdəliyin yerinə yetirilməsinə hazır olmadıqlarına görə, onları böyük məbləğdə cərimələr gözləyir. Bundan əlavə, müştərilər haqqında məlumatların mübadiləsi öhdəliyinin pozulmasına görə banklar daha sərt sanksiya ilə üzləşə bilərlər - onların Avropada fəaliyyət göstərmələri qadağan edilə bilər. FVX tərəfindən narahatlığa əsas olmadığı bildirilmişdir: informasiya mübadiləsi lazım olan vaxtda işə düşəcək.

# Əl yükləri üçün vergi ödəniləcək

Ukrayna mətbuatının yaydığı xəbərə görə, Belarus Respublikasının vətəndaşları Ukrayna sərhədindən keçərkən baqaj yükləri üçün vergi ödəməli olacaqlar. Bu yaxınlarda qəbul edilmiş Ukrayna ərazisindən tranzit keçidləri zamanı malların bu ölkənin sərhədlərindən keçirilməsinin məhdudlaşdırılması ilə bağlı yeni qanuna əsasən, beloruslar həm baqaj, həm də əl yükləri üçün mal vergisi ödəməlidirlər. Yeni müəyyən edilmiş qaydalarda göstərilir ki, Ukrayna ərazisindən rüsumsuz daşınan malların həddi 500 avro dəyərində və ya 50 kiloqram ekvivalentində ola bilər. Lakin Ukrayna sərhədindən üç gündə bir dəfə keçildiyi halda, bu limit çərçivəsində olan mallar üçün də beloruslar əlavə dəyər vergisi ödəməli olacaqlar.




# Avropa Komissiyası da «torba vergisinə» tərəfdar çıxdı

Son zamanların maraqlı vergi informasiyalarından biri bəzi ölkələrdə «torba vergisinin» tətbiqi ilə bağlıdır. Söhbət mağazalarda alış-veriş zamanı verilən sellofan torbalardan gedir: bu torbalar məişətimizə müəyyən asanlıq gətirsə də, necə deyərlər, işimizi yola versə də, hamımız üçün eyni dərəcədə həssas olan ətraf mühitin təhlükəsizliyi üçün ciddi problemlər yaradır. Sellofan paketlərin çürüməsi üçün yüz illər lazım gəlir.

Böyük Britaniya hökuməti 2016-cı ildə, ilk növbədə ətraf mühitin təhlükəsizliyi amili nəzərə alınmaqla, mağazalarda verilən hər plastik torba üçün müəyyən haqq tutulması qərarına gəlmişdi və dünyada bu təcrübə maraqla qarşılanmışdı. 2018-ci ilin Türkiyə əhalisi də «torba vergisi» barədə xəbərlə qarşılaşdı. Plastik paketlərdən istifadə nəticəsində ərmələ gələn ekoloji çirklənmənin qarşısının alınması məqsədilə Türkiyə qanunvericiliyində qablaşdırmalar barədə dəyişiklik edilmişdir və gələn ilin əvvəlindən satış nöqtələrində plastik paketlər üçün əlavə haqq tutulması qərara alınmışdır...

Bundan az sonra isə «torba vergisi» Avropa Komissiyasının gündəliyində aktuallaşdı. Komissiya bu məsələ ilə bağlı öz mövqeyini açıqladı və məsələnin mahiyyəti bir qədər də dərinləşdirildi: Komissiya plastik materiallardan hazırlanan qablaşdırma məmulatlarından istifadənin azaldılması üçün «Torba vergisi» tətbiq etmək təklifi ilə çıxış etdi. «Qarşıdan gələn bir neçə həftə ərzində plastik torbalardan istifadənin azaldılması məqsədilə plastmas üçün vergi tətbiq etmək imkanını nəzərdən keçirəcəyik, bu, Avropa üzrə ümumi vergi dərəcəsi müəyyənləşdirilməklə həyata keçiriləcək», - deyə Avropanın büdcə üzrə komissarı Günter Ettinger mətbuat konfransında bildirmişdir ki, Avropa Komissiyası bu vergi üçün ən yaxşı yanaşmanın nədən ibarət olduğunu araşdıracaq. Burada iki variant var: ya istehsal siklinin başlanğıcında bu sahənin vergi yükünün ağırlaşdırılması, ya da verginin istehlak zəncirinin sonunda alıcıdan tutulması. G.Ettingerin sözlərinə görə, istisnalar yalnız plastik məmulatların, məsələn, sağlamlıq və gigiyena üçün zəruri olan süd qablarının hazırlanması kimi «ümumi maraqlara» cavab verdiyi hallar üçün edilə bilər.

Avropa Komissiyası bundan narahatdır ki, Avropa İttifaqına üzv ölkələrdə plastmasdan istifadə həddən artıqdır, yaranan tullantılar isə indiyədək ənənəvi olaraq üçüncü ölkələrə, o cümlədən Çinə ötürülürdü və orada resirkulyasiya və ya təkrar istifadə edilirdi. Lakin yanvarın 1-dən Çin öz qapılarını dünyanın başqa yerlərindən gətirilən plastik tullantıların üzünə bağlamışdır və buna görə də Avropa düşdüyü ziyanın qarşısını almaq, xüsusi olaraq da okeanların çirkləndirilməsinə və ekosistemin tarazlığının pozulmasına yol verməmək üçün alternativ yollar axtarıb tapmaq məcburiyyəti ilə üz-üzə qalmışdır.

Ekspertlər diqqəti bir məsələyə də yönəldirlər ki, plastik torbalar üçün vergi qoyulması təşəbbüsü ekoloji məqsəd daşımaqla yanaşı, həm də Breksitlə əlaqədar yeni maliyyə mənbələri axtarışında olan Avropa Komissiyasının göstərdiyi səylərin bir hissəsidir: Böyük Britaniya Avropa İttifaqından çıxmaq qərarına gəldikdən sonra Birliyin maliyyələşdirilməsində boşluq özünü göstərməkdədir.

# «Google» vergilərə qənaət üçün offşorlara üz tutur

«Bloomberg» agentliyinin məlumatına əsasən, şirkətin az vergi ödəmək məqsədilə offşor zonalara çıxardığı vəsaitin məbləği 19,2 milyard dollar olmuşdur. Amerika Birləşmiş Ştatlarına məxsus olan «Google» öz vəsaitlərini 2,7 milyard məbləğində vergidən yayındığı Bermud adalarından çıxarandan sonra vergi dərəcələri aşağı olan Avropa yurisdiksiyalarında toplamışdır.

ABŞ şirkəti vergidən yayınmaq üçün «holland sendviçi ilə ikiqat irland viskisi» adlandırılan sxemdən faydalanmışdır. Həmin sxemə əsasən, vergidən yayınmaq üçün İrlandiyanın iki, Hollandiyanın isə bir şirkətindən istifadə edilir.

«Google» ilə bağlı göstəriciləri ictimaiyyətə Hollandiyanın Ticarət Palatası açıqlamışdır. İctimailəşdirilmiş göstəricilər təsdiq edir ki, «Google» şirkətinin Hollandiyadan 2016-cı ildə çıxardığı vəsaitin məbləği bir il ondan əvvəl çıxardığı məbləğdən 7 faiz artıq olmuşdur. Şirkət kifayət qədər vergi ödəmədiyinə görə, hazırda tənzimləyici orqanların güclü təzyiqi altındadır. Yalnız Fransada bir il ərzində yayındırılmış verginin məbləği 1,12 milyard avro olmuşdu.

Qeyd edək ki, İrlandiya «ikiqat irland viskisi» adlandırılan vergi qanunu boşluğunu 2015-ci ildə aradan qaldırmışdır, lakin bu sxemdən hazırda istifadə edən şirkətlərə öz fəaliyyətlərini 2020-ci ilin sonuna qədər davam etdirməyə icazə verilmişdir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 2.Heyvan növü; 3.İngilis pop-rok müğənnisi, bəstəkar və pianoçusunun adı; 4.Respublikamızda rayon; 5.Öz məqsədinə çatmaq üçün başqa insanları manipulyasiya etmək üsulu, insanlar arasında münaqişə, ziddiyyət; 6.Dini icmanın üzvü, rahib; 7.Macarıstanın pul vahidi; 13.Azərbaycanla qonşu dövlət; 15.Argentinada şəhər; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Mühasibatda aktiv və passiv hesabların qalıqlarını göstərən və hər hansı bir təsərrüfat və ya müəssisənin müəyyən dövr ərzindəki maliyyə vəziyyətini əks etdirən ümumi cədvəl; 18.Kürdəmir rayonunda qəsəbə; 20.Musiqili səhnə sənətinin bir növü; 21.Kisəli ayılar fəsiləsinin kisəli ayı cinsinə aid heyvan növü. **Soldan sağa:** 1.Fərdin öz nəzər nöqtəsindən başqa hər hansı digər fikri qəbul etməməsi; 8.Təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil, mühasibat uçotu aparan şəxs; 9.Musiqi termini. Zil kişi səsi; 10.Alkanlar sinfindən doymuş karbohidrogen; 11.İlisu sultanı; 12.«Babək» filmində (1979) Babək əl-Xürrəmi obrazını ifa edən aktyorun adı; 14.Respublikamızda ictimai-siyasi qəzet; 19.Tanrının mahiyyətini dərk etməyə və dünyadakı məxluqların, o cümlədən insanın var olmasının səbəbini anlamağa çalışan yəhudiliyə məxsus mistik ənənə, təlim; 21.Hindistanda və Şərqin bəzi ölkələrində ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə; 22.Xaşxaşkimilər fəsiləsinə aid bitki cinsi. Qadın adı. Azərbaycan klassik ədəbiyyatında ayrılıq əzabı çəkməyin rəmzi hesab edilir; 23.Oğuz tayfalarından birinin adı; 24.Qədim Misir mifologiyasına görə müdriklik və yazı tanrısı; 25.Xüsusi müalicə-profilaktik tibb müəssisəsi.



«Babək» filmindən epizod (1979)

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hürrəm (Sultan); 2.Səyavuş (Şəfiyev); 3.Yavər (Kələntərli); 4.Alyans; 5.Amman; 6.Urmiya; 9.Amon; 13.Əsna; 15.Samuray; 16.Adrian; 17.Minarə; 18.Vəsait; 20.Bəbir; 21.Hobbi. **Soldan sağa:** 1.Hüseynağa (Sadıqov); 5.ATU; 7.Reynveyn; 8.İmam; 10.Ənvər Çingizoğlu (Fərəcov); 11.Numeniy; 12.Əşrəf (Yusifzadə); 14.Knoss; 19.Dübəndi; 21.Həmzə; 22.İrbe; 23.Kanberra; 24.Nar; 25.Ədəbiyyat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Dünya çempionatına hazırlıq işləri yüksək səviyyədə aparılır

**2018-ci il iyunun 5-9-da Bakıda velosiped idmanının BMX növü üzrə təşkil olunacaq dünya çempionatı ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il 15 noyabr tarixli sərəncamına əsasən yaradılmış Təşkilat Komitəsinin İşçi Qrupunun iclası keçirilib. Tədbirdə aidiyyəti nazirliklərin, digər dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri iştirak ediblər.**

Tədbirdə çıxış edən Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov dövlətimizin başçısının sərəncamı barədə məlumat verərək vurğulayıb ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının Bakıda keçirilməsinə dair qərarı Azərbaycanın idman siyasətinin daha bir qələbəsi və beynəlxalq federasiyalar tərəfindən ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman və bədən tərbiyəsi sahəsində əldə olunan nailiyyətlərə verilən növbəti yüksək qiymətdir. O, dünya çempionatının Azərbaycanın idman həyatında növbəti mühüm hadisə olacağını qeyd edib.




Sahib Ələkbərov bildirib ki, Prezident İlham Əliyevin Olimpiya idman növü olan BMX üzrə dünya çempionatının Bakıda uğurla keçirilməsini təmin etmək üçün geniş tərkibli Təşkilat Komitəsi yaratması dövlətimizin başçısının bütövlükdə idmanın, o cümlədən velosiped idmanının inkişafına göstərdiyi diqqət və qayğının daha bir bariz nümunəsidir.

Tədbirdə geniş təqdimatla çıxış edən Sahib Ələkbərov dünya çempionatına hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verib və bu işləri əks etdirən videoçarxı iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd olunub ki, dünya çempionatında iştirakla bağlı müraciət edən ölkələrin sayı gündən-günə artmaqdadır. Mötəbər yarışın keçiriləcəyi BMX Stadionunda aparılmış yenidənqurma işlərindən sonra ötən ilin oktyabrda təşkil olunmuş dünya sınaq yarışı Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib. Həmçinin arenanın dünya çempionatını qəbul etməyə hazır olduğu rəsmi məktubla təsdiqlənib.

Sonra dünya çempionatının keçirilməsi ilə bağlı tədbirlər planı bənd-bənd müzakirə olunub və ortaya çıxan suallar cavanlandırılıb. Məlumat verilib ki, artıq iştirakçı ölkələrin nümayəndələri tərəfindən Bakıdakı otellərin çoxuna sifarişlər daxil olub. Yarışa gələcək iştirakçıların və qonaqların təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görülür. Bundan başqa, əcnəbi qonaqları Azərbaycanın tarixi, mədəniyyəti və mətbəxi ilə tanış etmək üçün konkret tədbirlər planı da hazırlanıb.




## 2018-ci ildə Azərbaycanda keçiriləcək beynəlxalq idman tədbirləri

Həmişə olduğu kimi, bu il də ölkəmiz müxtəlif idman növlərini əhatə edən önəmli beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə ev sahibliyi edəcək.

Dünyanın diqqətini cəlb edəcək ən əhəmiyyətli idman tədbirlərindən biri Formula-1 Azərbaycan Qran-Prisi olacaq. Bu möhtəşəm yarış aprelin 27-29-da təşkil ediləcək. Bundan başqa, iyunun 5-9-da ölkəmizdə Beynəlxalq Velosipedçilər İttifaqının velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatı təşkil olunacaq. Martın 15-18-də ölkəmiz idman gimnastikası üzrə dünya kubokuna, aprelin 12-15-də batut gimnastikası, tamblinq və ikili mini batut üzrə Avropa çempionatına ev sahibliyi edəcək. Eyni zamanda, aprelin 27-29-da Bakı şəhərində bədii gimnastika üzrə dünya kubokunun, iyunun 22-23-də isə yeniyetmələr arasında Olimpiya Oyunlarına idman gimnastikası üzrə təsnifat xarakterli yarışların təşkili planlaşdırılır. Beynəlxalq Gimnastika Federasiyasının ali orqanı olan Konqresin 82-ci iclasının dekabrda Azərbaycanın paytaxtı Bakıda keçirilməsi də nəzərdə tutulur. Bu il Bakıda keçiriləcək digər böyük idman yarışları sırasında mayda kapoeyra idman növü üzrə və sentyabrda cüdo üzrə dünya çempionatları da var.

2018-ci ildə ən mühüm idman tədbirlərindən biri də Gənclər və İdman Nazirliyinin dəstəyi ilə noyabrda keçiriləcək Ümumdünya Antidopinq Agentliyinin (ÜADA) İcraiyyə Komitəsi və Təsisçilərin Ümumi Yığıncağı olacaq. İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin gənclər və idman nazirlərinin dördüncü sessiyasının apreldə Bakıda həyata keçirilməsi də gözlənilən tədbirlər sırasındadır. Həmçinin 2018-ci ildə Azərbaycanda «Birinci Türk Universitetləri İdman Oyunlarının (Türk Universiadası)» təşkili nəzərdə tutulur. Daha bir önəmli tədbiri də qeyd etmək mütləqdir - dünyada ilk dəfə Xüsusi Olimpiya Komitəsinin Forumunun bu il Bakıda təşkili planlaşdırılır.

Ümid edirik ki, böyük idman yarışları və tədbirləri bu il də Azərbaycanın idman həyatında növbəti mühüm bir hadisə olacaq.

## mozaika

### robototexnika



## Gecə növbətçiləri

Yaponiyanın Nagoya Universitetinin xəstəxanasında fevraldan etibarən gecə növbəsində artıq robotlar xidmət göstərəcək. «Toyota» şirkətinin xəstəxana üçün xüsusi hazırladığı robotlar xəstələrə dərman verəcək, tibb bacılarına ləvazimatların daşınmasında və çatdırılmasında kömək edəcək. Xəstəxananın mərtəbələri arasında da hərəkət edəcək robotların axşam saat 5-dən səhər saat 8-dək xidmət göstərməsi planlaşdırılır.

Hər biri 90 litrlik dolaba sahib olan robotlar insanlarla qarşılaşdıqları zaman nəzakətlə davranacaq. Bununla da tibbi heyətin xəstəxanadakı iş yükü azalacaq və bir sıra problemlər aradan qalxacaq.

Xəstəxanada robotlardan ilk mərhələdə bir il müddətinə istifadə ediləcək. Əgər bu layihə uğurlu olarsa, «Toyota» şirkəti ilə daha uzunmüddətli müqavilə imzalanacaq.

### tədqiqat

## Ekoloji təmiz enerjinin alınması üçün yeni metod

İsveçrə alimləri osmotik enerji - ekoloji təmiz enerjinin alınması üçün şirin və duzlu sudan istifadə etməklə yeni metodu araşdırıblar. Osmotik elektrik enerjisi Lozanada Federal Politexnik Məktəbinin (EPFL) tədqiqatçıları tərəfindən hazırlanıb.

EPFL tədqiqatçılar qrupu «Nature» jurnalında elmi işin nəticələrini dərc edərək bildiriblər ki, bu enerji istehsalı «disulfid» kimi tanınan yeni materialdan istifadə nəticəsində əldə olunub.

Alimlərin sözlərinə görə, osmotik enerji texnologiyası real olarsa, bu, gələcəkdə təmiz enerji istehsalı üçün geniş perspektivlər açacaq. Çünki külək və günəş energetikası havadan və günün vaxtından çox asılı olduğu halda, osmotik energetika üçün yalnız suyun mövcudluğu kifayətdir.

### qan yaddaşı

## Milli qəhrəmanlarımıza həsr edilir...

**20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar yanvarın 15-dən Milli qəhrəmanlara həsr edilmiş sənədli filmlərin nümayişinə başlanılıb. Ekran əsərləri Mədəniyyət və Turizm Nazirliyinin kinematoqrafiya şöbəsi və Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin birgə təşkilatçılığı ilə idarənin tabeliyində olan mədəniyyət müəssisələrində təqdim olunur.**

**Gənc nəslin milli təfəkkürünün formalaşması və vətənpərvər ruhda tərbiyəsində, habelə tariximizin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən bu filmlərin nümayişi yanvarın 19-dək davam edəcək.**




### faydalı

## Bitkilərə can verən bitki

**Adətən yeməklərdə və şirniyyatlarda istifadə olunan darçının bir çox faydalarının olduğu artıq hər kəsə məlumdur. Lakin bu ədviyyatın solan bitkiləri canlandırdığını bilirdinizmi?**

Tərkibində çoxlu miqdarda antioksidant olan darçın, eyni zamanda, güclü iltihabəleyhinə təsirə də malikdir. Bu xüsusiyyət bitkilərə də öz müsbət təsirini göstərir. Darçının köməkliyi ilə çiçəklərin solması, quruması kimi bir çox problemi aradan qaldırmaq mümkündür. Bu, evdə olduğu kimi, bağçalarda yetiştirilən bitkilərə də aiddir.

Darçının bitkilərin qorunmasında istifadəsi üçün beş səbəb:

Bitkilərə qarışqa və ya həşəratlar daraşdıqda onları darçınla yox etmək mümkündür. Bu zaman bitkinin ətrafına səth şəklində darçın səpmək kifayətdir. Belə olduqda artıq heç bir həşərat bitkiyə yaxınlaşa bilməyəcək.

Bitkidəki göbələyin torpaqdan əmələ gəldiyi məlum olduqda onun torpağına darçın səpilir. Göbələyin başqa səbəblərdən yarandığı müşahidə edildikdə isə darçın bitkinin yarpaqlarına tökülür.

Bitkinin yarpaq və budaqlarında çürümə olduqda da zərər görmüş nöqtəyə darçın səpməklə bu problemi aradan qaldırmaq mümkündür.



Yeni bir bitki əkdikdə onun qısa zaman ərzində böyüməsini istəyirsinizsə, bunun üçün kimyəvi maddələrə ehtiyac yoxdur. Əkəcəyiniz bitkinin köklərini darçına batıraraq bir az saxlayın və sonra onu torpağa əkin. Bu zaman bitkinin qısa zaman ərzində böyüyüb, çoxaldığının şahidi olacaqsınız.

Darçın zəifləmiş bitkinin əvvəlki halına gətirilməsinə də kömək edir. Bunun üçün əzilmiş iki aspirini bir xörək qaşığı darçın və yarım litr su ilə qarışdırıb 12 saat saxlamaq lazımdır. Saxlanma müddəti tamamlandıqdan sonra hazır məhlulu sprey vasitəsilə bitkinin üzərinə səpin: qısa müddət ərzində onun canlandığını görəcəksiniz.

### mədəniyyət

## Beynəlxalq müsabiqədə birinci yer

Moskvada keçirilmiş «Rojdestvenskiye zvyozdı» («Milad ulduzları») adlı beynəlxalq festival-müsabiqədə Azərbaycanı təmsil edən, 20 illik fasilədən sonra fəaliyyəti bərpa olunmuş «Cücələrim» uşaq ansamblı öz əfsanəvi ustalığını bir daha təsdiq edib. Müxtəlif ölkələri təmsil edən yaradıcılıq kollektivlərini birləşdirən bu möhtəşəm beynəlxalq tədbirdə Azərbaycan kollektivi «Xoreoqrafiya - milli rəqslər» nominasiyasında çıxış edib və birinci yeri tutub. Müsabiqə üçün bəstəkar Tofiq Quliyevin «Qaytağı süitası» adlı musiqisi əsasında hazırlanmış kompozisiya təqdim edilib. Qaliblər festivalın müsabiqə diplomları və kubok ilə təltif edilib.

Festivalın təşkilatçısı - «Şəhərlərin həyatı» festival komitəsi UNESCO-nun «Gənc şəhərlərin mədəniyyəti» beynəlxalq konfransının Moskva müdiriyyəti bazasında, Moskvanın mədəniyyət departamentinin və Moskva Həmkarlar İttifaqları Federasiyasının himayəsi altında keçirilib. «Rojdestvenskiye zvyozdı» festival-müsabiqəsinin məqsədi Rusiyanın müxtəlif şəhərlərindən və xarici ölkələrdən olan uşaqların yaradıcılıq nailiyyətlərinin mübadiləsinə, onların ünsiyyətinə kömək etmək və müvafiq janrda ən yaxşı kollektiv müsabiqəsində iştirakını təmin etməkdir. Festival çərçivəsində uşaqlar üçün Moskvada unudulmaz bayram təşkil olunur, incəsənətin müxtəlif janrlarının gözəlliyini və bənzərsizliyi nümayiş etdirilir, çoxmillətli Rusiyanın və xarici ölkələrin uşaqlarının yaradıcılığı ilə tanışlıq təmin olunur. Festival tədbirləri uşaq kollektivlərinin ifaçılıq mədəniyyətini və ustalığını artırmağa, uşaq yaradıcılığını inkişaf etdirməyə və onun təbliğinə, gənc istedadların yaradıcılıq imkanlarının dəstəklənməsinə və reallaşdırılmasına yönəlib. Builki festivalda 2500-dən çox iştirakçı akkreditə edilib. Festivalın münsiflər heyətinə Böyük Teatrın aparıcı solistləri, tanınmış mədəniyyət xadimləri, Rusiya estrada ulduzları daxil olub.

### Müdriklər deyib ki...

***«Uğur qazanmağın üç yolu var: başqalarından çox bilmək; başqalarından çox işləmək; başqalarından az ummaq».***

***Vilyam Şekspir (1564-1616)***

